# ULU XUDAFƏRİN



Araz üstdə Xudafərin körpüsü
Qardaşlığın olub təməl hörgüsü
Şakir ALBALIYEV

Qəzet 2025-ci ildən çıxır № 05-06 (09-10) 11 may 2026-cı il


# 10 May - Ümummilli lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümüdür

# 9 May faşizm üzərində Qələbədən 81 il keçir

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər



**Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, xalqımızın dahi oğlu və Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü günüdür.**

AZƏRTAC xəbər verir ki, bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 9-da Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, Ulu Öndərin xatirəsini ehtiramla yad etdi.

Sonra birinci xanım Mehriban Əliyeva Ümummilli Liderin xatirəsini dərin hörmətlə andı.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Dövlətimizin başçısı və birinci xanım Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsinə ehtiramlarını ifadə edərək məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad olundu.

## Cəbrayıl rayonunda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş tədbir keçirilib





**10 may 2026-cı ildə Cəbrayıl Rayon İcra Hakimiyyətinin və YAP rayon təşkilatının birgə təşkilatçılığı ilə Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş tədbir keçililib.**

Tədbirdə Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov, rayonun hüquq-mühafizə orqanlarının, YAP rayon fəallarının, idarə, müəssisə və təşkilatlarının rəhbərləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin adını daşıyan Mədəniyyət və İstrahət parkında dahi şəxsiyyətin abidəsi ziyarət olunub, abidə önünə gül dəstələri qoyaraq əziz xatirəsi ehtiramla yad olunub.

Tədbir gün ərzində davam edirilib. Ulu öndər Heydər Əliyevin abidəsi rayon sakinləri tərəfindən ziyarət olunub, Ümummilli Lider Heydər Əliyevin sevdiyi və eləcə də dahi şəxsiyyətə həsr olunan musiqilər səsləndirlib.

# Prezident İlham Əliyev Cəbrayıl rayonuna səfər edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 9-da Cəbrayıl rayonunun Şükürbəyli kəndinin açılışında iştirak ediblər.**

Dövlətimizin başçısı əvvəlcə kənddə inşa edilmiş 360 şagird yerlik məktəb binasının açılışını edib.

Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Şükürbəyli kəndində görülmüş işlər barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdilər.

Bildirildi ki, Şükürbəyli Cəbrayıl rayonunun eyniadlı inzibati ərazi dairəsində, rayon mərkəzindən 18 kilometr cənub-şərqdə, düzənlik ərazidə yerləşir.

Kənd 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. İşğaldan əvvəl kənddə məktəb, klub, kitabxana və xəstəxana fəaliyyət göstərib, əhali əsasən üzümçülük, heyvandarlıq, taxılçılıq və baramaçılıqla məşğul olub. Kənd 2020-ci ildə Vətən müharibəsi zamanı rəşadətli Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilib. Prezident İlham Əliyev 2023-cü ildə kəndin təməlini qoyub.

Sonra elm və təhsil naziri Emin Əmrullayev məktəbdə yaradılmış şərait barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Diqqətə çatdırıldı ki, işğaldan azad edilmiş digər ərazilərimizdə istifadəyə verilən yeni məktəblərdə olduğu kimi, bu təhsil müəssisəsində də müəllim və şagirdlər üçün hərtərəfli şərait yaradılıb. Məktəbdə tədrisin yüksək səviyyədə aparılması üçün zəruri fənn kabinetləri, həmçinin fizika, kimya, biologiya laboratoriyaları, informatika, texnologiya, ibtidai hərbi hazırlıq sinifləri var. Bundan başqa, məktəbdə kitabxana, akt və idman zalları, yeməkxana müəllim və şagirdlərin ixtiyarına verilib. Ərazidə, eyni zamanda, futbol və basketbol meydançaları da yaradılıb.

Qeyd edək ki, müasir təhsil ocaqlarının qurulması işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı quruculuq işlərinin mühüm tərkib hissəsidir. Ən yüksək standartlara cavab verən təhsil müəssisələri yeni texnologiyalarla, zəruri maddi-texniki baza ilə təchiz olunur.

*****

Mayın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şükürbəyli kəndində inşa edilmiş fərdi evlərdə yaradılmış şəraitlə tanış olublar.

Dövlətimizin başçısına və birinci xanıma kənddə görülmüş işlər barədə məlumat verildi.

Bildirildi ki, Şükürbəyliyə rayonun Şıxalıağalı, Dəjəl kəndlərinin və Mahmudlu qəsəbəsinin sakinləri də daxil olmaqla, ümumilikdə 2522 nəfərin (615 ailə) köçürülməsi nəzərdə tutulur. İlkin mərhələdə 635 fərdi ev istifadəyə verilib. Onlardan 615-i sakinlər, 20-si isə xidməti istifadə üçündür. Evlər 2, 3, 4 və 5 otaqlıdır.

Kənddə sakinlərin rahat yaşaması və sosial məsələlərin həlli üçün bir sıra işlər görülüb. Burada hər biri 80 yerlik olmaqla 2 körpələr evi-uşaq bağçası, həkim məntəqəsi, musiqi məktəbi, klub-icma mərkəzi və yerli icra strukturları üçün inzibati bina tikilib.

Şükürbəyli kəndində 35/10 kV-luq elektrik yarımstansiyası inşa edilib, elektrik enerjisi, təbii qaz, içməli su, rabitə, həmçinin internet və "İP TV" şəbəkələri yaradılıb, yollar asfaltlanıb.

*****

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 9-da 150 çarpayılıq Cəbrayıl Rayon Mərkəzi Xəstəxanasının binasının tikintisi ilə tanış olublar.

Səhiyyə naziri Teymur Musayev dövlətimizin başçısına və birinci xanıma görülmüş və nəzərdə tutulan işlər barədə məlumat verdi.

Qeyd edək ki, bu xəstəxana binasının təməli Prezident İlham Əliyev tərəfindən 2021-ci ildə qoyulub. Ərazisi 5 hektara yaxındır. Xəstəxanada terapiya, cərrahiyyə, pediatriya, doğum, yoluxucu xəstəliklər, anesteziologiya-reanimasiya, hemodializ və digər şöbələr fəaliyyət göstərəcək. Bundan başqa, poliklinika, şüa-diaqnostika, funksional-diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələri, klinik diaqnostika laboratoriyası yaradılacaq. Hazırda əsas bina ilə yanaşı, yoluxucu xəstəliklər, hemodializ və poliklinika korpusları, təcili tibbi yardım stansiyası, həmçinin Cəbrayıl Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin və digər binaların inşası davam etdirilir.

*****

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 9-da Cəbrayıl rayonunun Soltanlı kəndində "AzərEnerji" ASC-nin 330 kV-luq "Şəfəq" yarımstansiyasının açılışında iştirak edib.

"AzərEnerji" ASC-nin İdarə Heyətinin sədri Balababa Rzayev dövlətimizin başçısına görülmüş işlər barədə məlumat verdi.

*(Ardı səh.2-də)*

# Prezident İlham Əliyev Cəbrayıl rayonuna səfər edib

(Əvvəli səh.1-də)

Diqqətə çatdırılıb ki, işğaldan azad edilmiş ərazilərdə ilk sənaye miqyaslı Günəş elektrik stansiyası və ən böyük, birbaşa xarici investisiya layihəsi olaraq bp şirkəti tərəfindən Cəbrayılda tikilən 240 meqavatlıq “Şəfəq” Günəş Elektrik Stansiyasının enerjisistemə inteqrasiyası üçün Azərbaycan dövləti tərəfindən irihəcmli işlər həyata keçirilib.

Bu çərçivədə “AzərEnerji” tərəfindən Cəbrayılda 330 kV-luq rəqəmsal yarımstansiya tikilib və bu yarımstansiyanı ölkənin enerji şəbəkəsinə qoşmaq üçün “Cəbrayıl” Enerji Qovşağına 7,5 kilometr uzunluğunda 330 kV-luq ikidövrəli yüksəkgərginlikli ötürmə xətti çəkilib. Bu infrastruktur yaşıl enerjinin ölkə üzrə hərəkətini təmin edən strateji bir körpüdür.

Yarımstansiya müasir rəqəmsal sistemlər, açıq və qapalı, həmçinin idarəetmə qurğuları, Rəqəmsal İdarəetmə Mərkəzi ilə təchiz edilib. Mərkəzdə məsafədən idarəetməni təmin edən mikro-SCADA dispetçer sistemi qurulub, mərkəzi SCADA sisteminə inteqrasiya olunub.

Yarımstansiyada çalışan işçi heyət əsasən yeni məskunlaşmış yerli əhali arasından seçilib və onlar müvafiq təlimlərdən sonra işə cəlb ediliblər.

Qeyd edək ki, Azərbaycan Prezidentinin “Böyük Qayıdış” strategiyasına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərdə “AzərEnerji” tərəfindən tikilən bütün enerji obyektlərində yerli kadrların işlə təmin olunmasına xüsusi önəm verilir.

“Şəfəq” Günəş Elektrik Stansiyasının enerjisistemə inteqrasiyası üçün həyata keçirilən layihənin əsas məqsədi dövlət və özəl sektor əməkdaşlığını gücləndirmək, karbon emissiyalarını azaltmaq, təbii qaza qənaət etmək, yaşıl enerjinin payını artırmaq və enerji təhlükəsizliyini daha da möhkəmləndirməkdir.

Bu irihəcmli yaşıl enerjinin ötürülməsi layihəsi paralel şəkildə davam etdirilib. Belə ki, Səngəçal Terminalının yaşıl enerji ilə təchizatı məqsədilə yeni 220 kilovoltluq yarımstansiya tikilib və işlər artıq yekunlaşıb. Bu yenilik nəticəsində terminalda qazla işləyən elektrik stansiyası dayandırılacaq və Cəbrayılda Günəşdən əldə olunan enerji ümumi enerjisistemə, oradan isə balanslaşdırılmış şəkildə həm də Səngəçal terminalına yönləndiriləcək. Səngəçal terminalında təbii qazla işləyən 140 MVt gücündə modul tipli elektrik stansiyasının fəaliyyəti dayandırılmaqla, terminalın illik tələbatının 500 milyon kilovat-saatının bərpaolunan enerji hesabına qarşılanması ilə illik 120-150 milyon kubmetrdən artıq təbii qaza qənaət ediləcək. Bu da bp şirkətinin Xəzər regionunda əməliyyat tullantılarının $CO_2$ emissiyasının illik 260-330 min ton azaldılmasına töhfə verəcək.

Dövlətimizin başçısına son dövrlərdə yaşıl enerji ilə ənənəvi enerjinin paralel inkişafı barədə də məlumat verildi.

Bildirildi ki, enerji sisteminin rəqəmsal əsasda modernləşdirilməsi konkret nəticələr verməyə başlayıb. Bu dinamika xüsusilə bolsulu, günəşli və küləkli günlərin səmərəli olduğu aprel və may aylarında daha aydın hiss edilib. Belə ki, müxtəlif günlərin müəyyən saatlarında ölkə üzrə elektrik enerjisi istehlakının 36-41 faizi məhz yaşıl enerji hesabına təmin olunub.

Məsələn, aprelin 20-də ümumilikdə 64,4 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib ki, bunun da 36,5 faizi bərpaolunan mənbələrin payına düşüb. Həmin enerjinin 15,9 milyon kilovat-saatı isə işğaldan azad edilmiş ərazilər də daxil olmaqla, su elektrik stansiyalarında, 7,6 milyon kilovat-saatı isə Günəş və külək stansiyalarında istehsal olunub. İcra edilmiş tədbirlər hesabına enerjisistemdə bəzi saatlarda yaşıl enerjinin payı 41 faizə çatır.

*****

Mayın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıl rayonunun Şükürbəyli kəndinə köçən sakinlərlə görüşüblər.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı

- İlk növbədə, sizi doğma vətənə qayıtmağınız münasibətilə təbrik edirəm. Şükürbəyli kəndi tamamilə yenidən qurulub. Bildiyiniz kimi, işğal dövründə Ermənistan dövləti bu kəndi tamamilə dağıtmışdı, bir dənə də salamat bina qalmamışdı. Mənim keçmiş köçkünlərlə işğal dövründə çoxsaylı görüşlərim zamanı həmişə deyirdim ki, biz torpaqları azad edəndən sonra bütün şəhərləri, kəndləri quracağıq, onları daha gözəl vəziyyətə gətirəcəyik və bu gün Şükürbəyli kəndinin timsalında bunu görürük. Kənd çox müasirdir, yaşamaq, çalışmaq, təhsil almaq üçün bütün şərait - məktəb, musiqi məktəbi, iki uşaq bağçası, tibb məntəqəsi, əlbəttə, gözəl, yaraşıqlı evlər var ki, burada siz - Şükürbəyli kəndinin sakinləri rahat yaşayasınız.

Uzun illər ərzində bu torpaqlar işğal altında olub. Ermənistan dövləti Azərbaycan xalqının irsini bu ərazidən tamamilə silmək istəmişdir, ancaq buna nail olmamışdır. Baxmayaraq ki, şəhər və kəndlərimiz viran qoyulub, Azərbaycan xalqının tarixi yaddaşı heç vaxt silinməmişdir. Bilirəm ki, siz və bütün keçmiş köçkünlər bir arzu ilə - öz doğma torpaqlarına qayıtmaq arzusu ilə yaşamısınız. Bəzileriniz Biləsuvar rayonunda dövlət xətti ilə verilmiş evlərdə məskunlaşmısınız, bəzileriniz özünüz üçün hansısa şərait qurmusunuz. Amma əlbəttə ki, doğma torpaq, doğma vətən hər şeydən daha əzizdir.

Bu gün çox gözəl bir gündür, tarixi bir gündür, ədalətin təntənəsi günüdür. Biz - bu torpaqların sahibləri nəinki bu torpaqları düşmən əlindən döyüşərək aldıq, şəhidlər verərək aldıq, eyni zamanda, bu torpaqları canlandırdıq. İşğal dövründə Ermənistan dövləti Cəbrayıl rayonunda bir daşı daş üstə qoymamışdı. Düzdür, yol çəkmək istəyirdi, amma buna vaxtı çatmadı. Amma bir daşı daş üstə qoymamışdır. Cəbrayıl tamamilə yerlə-yeksan edilmişdir, nə şəhərdə, nə də ki, kəndlərdə bir dənə də salamat bina qalmamışdı, Ağdam kimi. Zəngilanda tək-tük ev qalmışdı, orada qanunsuz məskunlaşma da aparırdılar. Amma Füzuli, Ağdam, Cəbrayıl tamamilə dağıdılmışdır. Evlər söküldü, daşlar talan edildi, müxtəlif yerlərdə bazarlarda satıldı. Biz isə qurub-yaradırıq. İndi Cəbrayıl rayonunda bir neçə min insan yaşayır. İlk növbədə, Cəbrayıl şəhərində, - şəhərin mərkəzi də buradan o qədər də uzaq deyil, - ondan sonra Horovlu kəndində, Cocuq Mərcanlıda. Aprel döyüşlərindən sonra biz o kəndi yenidən qurduq. Ən çox insanlar burada yaşayacaq, hələlik 635 ev. Amma mənə verilən məlumata görə, köçmək, qayıtmaq istəyənlərin sayı daha çoxdur, təqribən 900-dən çoxdur. Ona görə kəndin ikinci mərhələsini də biz nəzərdə tuturuq.

Əlbəttə ki, yaşayışla əlaqədar, təhsillə bağlı məsələlər həll olunduqca, məşğulluq məsələləri də həll edilir. Burada da vətəndaşların məşğulluğunu təmin etmək üçün bütün müvafiq göstərişlər verildi - həm mövcud olan dövlət sektorunda iş yerləri təbii ki, təqdim olunur, ondan sonra kənd təsərrüfatı ilə məşğul olmaq üçün, xüsusilə heyvandarlıq və bitkiçiliklə. Bunlardan başqa, Cəbrayıl rayonunda sənaye zonası – “Araz Vadisi” Sənaye Zonası fəaliyyət göstərir, orada da böyük sahəni biz nəzərdə tutmuşuq, 200 hektar sahə ayrılıb. Bu sənaye zonasında indi 20 rezident var, artıq istehsala da başlamışlar. O, daha da böyüyəcək, o da buradan çox da uzaqda deyil. Onu da bildirməliyəm ki, azad edilmiş ərazilərdə biz cəmi iki sənaye zonası nəzərdə tutmuşuq - biri Ağdamda, biri də Cəbrayılda.

Ümumiyyətlə, Cəbrayılın gələcəkdə həm kənd təsərrüfatı, həm də nəqliyyat nöqteyi-nəzərindən ölkəmiz üçün böyük töhfəsi olacaq. Köhnə yolu siz yəqin ki, xatırlayırsınız, sovet vaxtında - işğala qədər çox ensiz bir yol idi, düz Araz çayının boyunca gedirdi. Onu biz bərpa etdik, amma yeni yol, - indi bilmirəm, siz onu görmüsünüz, yoxsa yox, - Zəngəzur dəhlizinin bir hissəsi olan, ta Ermənistan sərhədinə gedən dördzolaqlı yol. Yəni bunun ondan yuxarı standartları da yoxdur. Ona görə nəqliyyat məsələləri də burada həll olunur və gələcəkdə Cəbrayıl, beynəlxalq nəqliyyat dəhlizi üzərində qurulan şəhər və kəndlər bundan faydalanacaq.

Cəbrayılda bizim ən böyük Günəş elektrik stansiyaları inşa edilir - üç stansiya, ümumi gücü 340 meqavat. Yəni bu gün 340 meqavatla bütün Qarabağı işıqlandırmaq olar. Amma nəzərə alsaq ki, biz artıq Zəngilanda, Laçında, Kəlbəcərdə 300 meqavatdan çox su elektrik stansiyaları işə salmışıq, təqribən bir-iki il ərzində bu bölgənin Günəş və su potensialı elektrik istehsalı üçün 700 meqavata yaxın olacaq. Yəni bu, ölkə üçün, məşğulluq üçün çox böyük xeyir gətirəcək. Yəni azad edilmiş bütün bu ərazilər ölkəmizin bütün başqa əraziləri ilə bağlanır - yollarla, hava limanları ilə, elektrik və su xətləri ilə. İndi “Xudafərin”, “Qız Qalası” su anbarlarının suyundan da istifadə edəcəyik, orada elektrikdən də istifadə edəcəyik. Beləliklə, bir daha bütün dünyaya göstərəcəyik ki, biz qurub-yaradan xalqıq, eyni zamanda, döyüşən xalqıq. Bu torpaqları biz qan tökərək qaytarmışıq, - Allah bütün şəhidlərimizə rəhmət eləsin, - parlaq Qələbə qazanmışıq, bu Qələbənin müasir tarixdə tayı-bərabəri yoxdur, yəqin ki, olmayacaq və biz bu əbədi Qələbə ilə fəxr etməliyik. Gənc nəsil də evlərdə, ailələrdə, məktəblərdə bu ruhda tərbiyə almalıdır ki, biz müzəffər ölkə, xalq kimi bundan sonra qürurla yaşayaq.

Sizi ürəkdən təbrik edirəm, sizə cansağlığı arzulayıram.

*****

**Sakinlər:** Çox sağ olun, cənab Prezident.

**Kişi sakin:** Möhtərəm Prezident, bu kənddə boya-başa çatan bir adam, burada çalışan bir müəllim kimi bu gün Sizinlə bu görüşümüz bizim üçün tarixi bir hadisədir. Sizin uğurlu siyasətinizin, qəhrəman oğullarımızın şücaəti nəticəsində bu doğma torpaqlarımız bizə qayıtdı. Mən 40 yaşımda buradan çıxmışam, indi 73 yaşım var. Mən Sizinlə fəxr edirəm. Sizin bütün çıxışlarınızı, xarici jurnalistlərə verdiyiniz cavabları - hamısını diqqətlə izləyirik və Sizinlə fəxr edirik. Biz də çalışacağıq ki, Sizin adınızı həmişə ucaldaq.

**Prezident İlham Əliyev:** Sağ olun, çox sağ olun.

**Kişi sakin:** Mübarizə aparırsınız. Burada da, xaricdə də, başqa ölkələrdə də, istəyənlərin arasında da, istəməyənlərin arasında da mübarizə aparırsınız, dəmir iradənizi nümayiş etdirirsiniz. Sülhün, əmin-amanlığın tərəfində dayanıb bütün xalqlara onu aşılayırsınız. Mübarizə bu gün də var, sabah da. Siz də onun ən ön sıralarında.

**Prezident İlham Əliyev:** Sizin kimi insanlar, Azərbaycan xalqı mənim arxamda, dövlətin arxasında durduqca bizim də təbii ki, gücümüz artır. Sağ olun, təşəkkür edirəm sizə. Təbrik edirəm.

**Sakinlər:** Sağ olun.

**Qadın sakin:** Möhtərəm Prezident, əziz Mehriban xanım. Mən də bir neçə kəlmə demək istəyirəm. Bu gün bizə bu tarixi günü yaşatdığınız üçün, bizi öz torpaqlarımıza qovuşdurduğunuz üçün Sizə ürəkdən cansağlığı, uzun ömür arzulayıram. Mən müəlliməm. Bir məsələni yada salmaq istəyirəm. Bu gün bizim görüşümüz elə bir tarixi günə təsadüf edir ki, Ulu Öndərimizin doğum günü ərəfəsindəyik, onu biz bütün respublika səviyyəsində qeyd edirik. Mən də Ulu Öndərimizi ürəkdən şəxsən çox sevən, hörmət edən bir müəlliməm, tələbə vaxtımdan da sevmişəm. Onun çıxışlarını dinləyəndə həmişə deyirdi ki, biz Qarabağa qayıdacağıq, o gün gələcək. Möhtərəm Prezident, onun qoyduğu o böyük siyasəti Siz elə bir uğurla davam etdirdiniz ki, bu gün Qarabağ artıq bizimdir. Qarabağın bütün bölgələrində artıq quruculuq işləri başlayıb, bütün həyat canlanır, insanlar öz doğma yurdlarına qovuşublar. Buna görə Sizə minnətdarıq, təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Həmin qadın sakin:** Mehriban xanım, Siz həmişə köçkünləri, uşaqları, insanları, qadınları dinləmisiniz, yanlarında olmusunuz. Allah Sizə də uzun ömür, cansağlığı versin. Siz bizim Prezidentimizin ən yaxın köməkçisi və silahdaşı, arxasısınız. Sizə də uzun ömür, cansağlığı arzulayıram.

**Mehriban Əliyeva:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun, təşəkkür edirəm, təbrik edirəm.

**Qadın sakin:** Allah sizə cansağlığı versin. Sizinlə qürur duyuruq.

**Prezident İlham Əliyev:** Sağ olun, sizə də cansağlığı, uzun ömür arzulayıram. Doğma torpaqda rahat yaşayacaqsınız, inşallah.

**Sakinlər:** İnşallah.

**Qadın sakin:** Çalışacağıq ümidinizi doğruldaq həmişə.

**Prezident İlham Əliyev:** Əminəm ki, belə də olacaq.

*****

Sonra açarların təqdim edilməsi mərasimi oldu.

*****

Dəvət olunur, Rüstəmov Yusif İsa oğlu.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**Yusif Rüstəmov:** Sağ olun, çox sağ olun.

Həsənova Zenfira Famil qızı.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**Zenfira Həsənova:** Çox sağ olun.

Seyidalıyev İlqar Səməd oğlu.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**İlqar Seyidalıyev:** Cənab Prezident, çox sağ olun, çox var olun ki, bu gün burada iştirak edirsiniz. Bizim ən əlamətdar günlərimizdən biridir. Yoldaşım da buradadır, bu gün bizim toy günümüzdür.

**Prezident İlham Əliyev:** Təbrik edirəm!

**İlqar Seyidalıyev:** 34 il əvvəl bu kənddə, - ikinci ev mənim atamın evidir, - orada çadır qurub toy etmişik. Mən fəxr edirəm ki, Siz bizim toy günümüzdə Mehriban xanımla birgə iştirak etmisiniz.

**Prezident İlham Əliyev:** Biz gedəndən sonra yəqin ki, qeyd edəcəksiniz.

**İlqar Seyidalıyev:** Çox sağ olun, çox var olun!

**Prezident İlham Əliyev:** Təbrik edirəm, sağ olun. Neçənci ildə evlənmisiniz?

**İlqar Seyidalıyev:** 1992-ci ildə.

**Mehriban Əliyeva:** Təbrik edirəm sizi.

**İlqar Seyidalıyev:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** 1992-ci ildə, işğala bir il qalmış.

**İlqar Seyidalıyev:** Bəli.

**Prezident İlham Əliyev:** Sonra haraya köçdünüz işğal dövründə?

**İlqar Seyidalıyev:** Mən bu zastavanın rəisi idim, öz kəndimizdə hərbçi idim. İşğaldan sonra da xidmətə davam etdim.

**Prezident İlham Əliyev:** Bəs işğal dövründə harada məskunlaşmışdınız?

**İlqar Seyidalıyev:** Ailəm İmişlidə, mən də döyüşlərdə.

Babayev Mayis Allahverdi oğlu.

**Mayis Babayev:** Çox sağ olun, təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

Fətəliyeva Mina Cəlil qızı.

**Mina Fətəliyeva:** Çox sağ olun, təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Təbrik edirəm, siz burada, bu kənddə müəllim olmusunuz?

**Mina Fətəliyeva:** Bəli, təyinatımla ilk dəfə buraya müəllim gəlmişəm, 1990-cı ildə.

**Prezident İlham Əliyev:** Özünüz buralısınız, yoxsa?

**Mina Fətəliyeva:** Yox, mən rayonun özündənəm. Buraya müəllim gəldim.

**Prezident İlham Əliyev:** Burada müəllim işləmisiniz?

**Mina Fətəliyeva:** Bəli, müəllim işləmişəm. İndi də təzədən burada, inşallah, pedaqoji fəaliyyəti davam etdirəcəyik.

**Prezident İlham Əliyev:** Bəli, məktəbdə yəqin ki?

**Mina Fətəliyeva:** İnşallah.

**Prezident İlham Əliyev:** Ya burada, ya da ki, Cəbrayıl şəhərində.

**Mina Fətəliyeva:** Yox, elə burada, kənddə.

**Prezident İlham Əliyev:** Burada məktəb də çox gözəldir.

**Mina Fətəliyeva:** Burada davam edəcəyik, inşallah.

**Prezident İlham Əliyev:** Bəli, mütləq.

**Mina Fətəliyeva:** Ailə üzvlərimlə şəkil çəkdirə bilərik?

**Prezident İlham Əliyev:** Bəli, gəlin çəkdirək. Siz harada yaşamısınız işğal dövründə?

**Mina Fətəliyeva:** İşğal dövründə buradan çıxdıq, getdik İmişliyə.

**Kişi sakin:** İmişlidə, bir hissəsi də Bakıda.

**Prezident İlham Əliyev:** Bakıda harada?

**Kişi sakin:** Yataqxanada, Sabunçu rayonu ərazisində. Özüm də Mərkəzi Seçki Komissiyasında işləmişəm bu ilə qədər. Bu il yaşa görə çıxmışam.

**Prezident İlham Əliyev:** Bu günlərə qədər yataqxanada? Çətin bir həyat - yataqxanada 30 il yaşamaq.

**Mina Fətəliyeva:** Otaq balaca.

**Prezident İlham Əliyev:** Neçə otağınız var idi?

**Mina Fətəliyeva:** Bir otaq. Şükür Allaha bu günü bizə yaşatdığınız üçün.

**Prezident İlham Əliyev:** Siz buna layiqsiniz.

**Mina Fətəliyeva:** Ürəkdən, səmimi-qəlbdən Sizə təşəkkür edirik. Artıq geniş otaqlarımız, mənzilimiz, həyətimiz, torpağımız, Vətənimiz! Çox sağ olun, Sizin sayənizdə.

**Prezident İlham Əliyev:** Təmiz hava, gözəl təbiət, əsas da doğma Vətən torpağı.

**Mina Fətəliyeva:** Çox sağ olun!

**Prezident İlham Əliyev:** Təbrik edirəm bir daha.

Əhmədov Əliyar Teymur oğlu.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**Əliyar Əhmədov:** Çox sağ olun, mən də kəndimizin sakinləri adından sizlərə dərin təşəkkürümüzü bildiririk ki, bizi bu doğma yurdumuza qaytardınız.

**Prezident İlham Əliyev:** Sağ olun, təbrik edirəm.

Hüseynova Nuranə Sergey qızı.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**Nuranə Hüseynova:** Çox sağ olun, minnətdaram.

Abbasov Qədir Famil oğlu.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**Qədir Abbasov:** Çox sağ olun.

Məmmədova Ülviyyə Məmməd qızı.

(Ardı səh.3-də)

*(Əvvəli səh.2-də)*

# Prezident İlham Əliyev Cəbrayıl rayonuna səfər edib

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**Ülviyyə Məmmədova:** Çox sağ olun.

**Kişi sakin:** İcazə olar, şəkil çəkdirək?

**Prezident İlham Əliyev:** Bəli, əlbəttə.

**Kişi sakin:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Təbrik edirəm sizi.

Rəsulov Rəhman Çingiz oğlu.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**Rəhman Rəsulov:** Çox sağ olun, cənab Prezident.

**Prezident İlham Əliyev:** Sən cavansan. Sən də burada doğulmusan, yoxsa?

**Rəhman Rəsulov:** Bəli, mən 8 yaşımda olanda buradan çıxmışıq. İndi 40 yaşım var, mən də müəllim kimi pedaqoji fəaliyyətimi burada davam etdirmək istəyirəm.

**Prezident İlham Əliyev:** Harada işləyirdin bu vaxta qədər?

**Rəhman Rəsulov:** Bu vaxta qədər Biləsuvar ərazisində yerləşən 10 saylı qəsəbədə.

**Prezident İlham Əliyev:** İndi burada davam edərsən.

**Rəhman Rəsulov:** İnşallah, çox sağ olun.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**Mehriban Əliyeva:** Cənab Prezident, Əli ilə bir daha şəkil çəkmək olar? Əvvəl ikisi ilə. Buyurun.

**Prezident İlham Əliyev:** Əlbəttə.

**Mehriban Əliyeva:** Təbrik edirəm sizi.

**Prezident İlham Əliyev:** Gəlin, ayrı-ayrılıqda çəkdirək. Sonra da hamımız birlikdə.

**Sakin:** Şərqin lideri, Şərqin fatehi Nadir şah oldu, Qafqazın da fatehi Sizsiniz.

**Prezident İlham Əliyev:** Sağ olun, çox sağ olun.

*****

Şəkillər çəkdirilir.

*****

**Prezident İlham Əliyev:** Siz harada işləmisiniz?

**Qadın sakin:** Mən işləməmişəm.

**Prezident İlham Əliyev:** Yəqin ki, Bakıda yaşamısınız.

**Qadın sakin:** Bəli.

**Prezident İlham Əliyev:** Burada, bilirsiniz, elə kəndlər, şəhərlər salınır ki, paytaxtdan da geri qalmayacaq.

**Sakinlər:** İnşallah, Sizin sayənizdə.

**Prezident İlham Əliyev:** Əsas odur ki, doğma Vətən torpağıdır. Əlbəttə ki, bu torpaqları canlandırmaq lazımdır.

**Kişi sakin:** Dəqiqələri sayırdım mən buraya gəlməyə, and olsun Allaha.

**Prezident İlham Əliyev:** Bir neçə gün bundan əvvəl kənd təsərrüfatı sərgisində idim. Orada da maraqlanırdım, çünki torpaqlar işğaldan azad olunandan sonra birinci göstərişlərdən biri də o idi ki, bu torpaqları biz yenidən əkin dövriyyəsinə qaytaraq. Hər dəfə, hər il əkinbiçin mövsümündən sonra arayış alıram və baxıram taxılçılığın inkişafı nə qədərdir. Ölkə üzrə yaxşı gedir, indi köhnə leksikonla desək, təqribən 35 sentner/hektardan, əslində, 3,5 ton. Maraqlanıram, Qarabağda nə qədərdir, çox az və sual yaranır ki, nə üçün? Çünki burada məsələn, torpaq çox münbitdir, siz də yaxşı bilirsiniz, çox məhsuldardır. Mənə indi izahat verilir ki, özü də xarici mütəxəssislər, o cümlədən ermənilər bu torpağı o qədər əziblər, o qədər qaydasız istismar ediblər ki, bu torpaqları canlandırmaq üçün bəlkə də 5-10 il vaxt lazımdır. Ona görə də burada necə ki, bizim bütün təbii sərvətlərimizi talayıblar, istismar ediblər, torpağımızı da demək olar ki, böyük dərəcədə bərbad vəziyyətə salıblar. Ona görə indi müasir aqrotexniki tədbirlər, müasir suvarma sistemləri və kənd təsərrüfatının inkişafı ilə bağlı ümumi strategiyamız əsasında bu torpaqları canlandırmaq lazımdır. Çünki siz də yaxşı bilirsiniz ki, Azərbaycanın bir çox bölgələrində çox münbit torpaqlar var, o cümlədən Qarabağda və Şərqi Zəngəzurda. Sovet vaxtında burada üzümçülüyü yəqin ki, xatırlayırsınız.

**Sakinlər:** Bəli, pambıqçılıq, üzümçülük, ən qabaqcıl kolxoz olub bizimki. 6-7 kənd bizə baxırdı. Sosialist Əməyi Qəhrəmanı Köçəri Babayevin kolxozu idi.

**Prezident İlham Əliyev:** Burada nə idi o kolxozun ixtisaslaşması?

**Sakinlər:** Burada üzümçülük, baramaçılıq, maldarlıqla məşğul idik. Bizim 1200 baş iribuynuzlu mal-qaramız olub.

**Prezident İlham Əliyev:** Hamısını bərpa etmək lazımdır.

**Sakin:** Kolxozun mühasibi idi bu.

**Kişi sakin:** 12 min baş qoyunumuz olub, toyuğun sayı-hesabı yox idi.

**Prezident İlham Əliyev:** Siz gərək o səviyyəyə qaldırasınız. Həm siz, həm gənc nəsil. Çünki burada heyvandarlıq da, üzümçülük də olub. Bu bölgədə - Zəngilanda, Qubadlıda tütünçülük də olub, burada necədir bilmirəm.

**Sakinlər:** Bizdə tütün olmayıb.

**Prezident İlham Əliyev:** Olmayıb. Maldarlıqla bağlı.

**Sakinlər:** Maldarlıq bizdə ən yüksək səviyyədə idi. İpək olub - biz ildə 19 ton əvəzinə, 26 ton barama vermişik.

**Prezident İlham Əliyev:** Camaat da yaxşı dolanırdı.

**Sakinlər:** Çox, çox, yəni milyoner kolxoz idik biz.

**Prezident İlham Əliyev:** Gərək siz buranı dövlətin dəstəyi ilə o hala gətirəsiniz.

**Kişi sakin:** Bizim kolxozumuz çox qabaqcıl kolxoz olub.

**Prezident İlham Əliyev:** Sonra Sovet İttifaqı dağıldı. Kolxoz qalmışdı, ya dağıldı?

**Sakinlər:** Yox, dağılmadı, bizdə qaldı. Köçəri Babayev rəhmətə getdi, kolxoz da dağıldı. O, çox işləyən adam olub, 71 yaşında rəhmətə gedib. Mən onunla çox işləmişəm. Yəni o, ölən gününə qədər işlədi. Bir yerə gedəndə bir 12 vərəqli dəftər yazırdı ki, filan işlər görülsün. Çox qayda-qanunla işləyirdi.

**Prezident İlham Əliyev:** İndi texnologiyalar daha da inkişaf edib. Müasir intensiv bağçılıq texnologiyaları var. Baxın, qonşuluqda yerləşən Ağalı kəndinə. Orada böyük bağ salınıb. İndi mənə məlumat verirlər ki, oradan yığılan meyvələri xaricə də satırlar. Ona görə bağçılıq, üzümçülük, taxılçılıq, baramaçılıq, heyvandarlıq dövlətin dəstəyi ilə inkişaf etməlidir.

**Kişi sakin:** Biz üzümü vaqonla xaricə satırdıq.

**Prezident İlham Əliyev:** Zavod var idi?

**Sakinlər:** Şərab zavodu, çox böyük idi. Ən böyük bizdə idi.

**Prezident İlham Əliyev:** Sisternlərlə göndərilirdi?

**Sakinlər:** Bəli, sistern gəlib dayanırdı, çənlərdən içinə şərab vurulurdu.

**Prezident İlham Əliyev:** Yaxın gələcəkdə biz kənd təsərrüfatının inkişafına dair dövlət proqramı qəbul edəcəyik, bu məsələlər orada nəzərdə tutulacaq, o cümlədən dövlət vəsaiti. Əsas odur ki, buraya qayıdan keçmiş köçkünlər gecə-gündüz çalışsınlar, həm öz dolanışıqlarını təmin etsinlər, həm də dövlətə xeyir versinlər.

**Kişi sakin:** Möhtərəm Prezident, rayonun, səhv etmirəmsə, 28 müəssisəsinin idarəsi burada - bu kənddə idi. Kimya birliyi, kənd təsərrüfatı texnikası stansiyası, kinoprokat.

**Prezident İlham Əliyev:** Ən böyük kəndlərdən biri idi? Bundan böyüyü var idi?

**Sakinlər:** Mərcanlı böyük idi. Böyük Mərcanlı, Soltanlı. O, bizdən böyük idi, amma stansiya burada olduğuna görə rayonun anbarı burada idi. Çünki məsələn, başqa yerdə olsa, daşımaq gərək idi.

**Kişi sakin:** 7-8 rayonun kinoprokat idarəsi burada yerləşirdi.

**Prezident İlham Əliyev:** Soltanlıda indi yarımstansiya və aqroparklar açılır. Müharibə zamanı Soltanlı uğrunda gedən döyüşlər ən şiddətli döyüşlərdən idi. Orada ermənilər güclü istehkamlar qurmuşdular. Soltanlı uğrunda şəhidlərimiz də olub. Ancaq o kəndi biz azad edəndən sonra daha sürətlə irəli getdik. Orada, yəni bax, bu bölgədə, - Arazboyu bölgəsində, - bəlkə də birinci Füzulinin o Qaraxanbəyli kəndi, sonra Mərcanlı idi ki, biz birinci o xətti oradan yarıb keçdik. Sonra ən şiddətli döyüşlər Soltanlıda getmişdi. Bütün bu torpaqlar bizim qəhrəmanlıq simvolumuzdur.

**Sakinlər:** Bəli. Allah şəhidlərimizə rəhmət eləsin.

**Prezident İlham Əliyev:** Bunu yaşatmaq, uşaqlara öyrətmək lazımdır. Tərbiyə etmək lazımdır. Bizim qədər, tam, yəni mütləq Qələbə qazanan ikinci ölkə yoxdur. Ən azı son 80 ildə və ondan sonra da olmayıb. Bax bu, qürur mənbəyidir.

**Kişi sakin:** Dünya da bizi tanıdı.

**Prezident İlham Əliyev:** Və hörmət etməyə başladı.

**Qadın sakin:** Möhtərəm Prezident, Şah İsmayıl Xətaidən sonra Azərbaycanı hissə-hissə qoparıb dağıdıblar. Azərbaycanın torpağını geri qaytaran bir ali baş komandanımız, komandanımız, sərkərdəmiz olmayıb. Birinci dəfədir ki, biz əlimizdən alınan torpaqları geri qaytarmışıq.

**Kişi sakin:** Bəli, son 200 ildə.

**Prezident İlham Əliyev:** Sağ olun. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

**Sakinlər:** Sağ olun.

***AZƏRTAC***

# Şəhidlərimiz "Cəbrayıl şəhidləri" kitabının təqdimatında anıldı







**Aprelin 16-da 1 saylı Cəbrayıl qəsəbə klubunda yüksək təşkilatçılıq şəraitində, dərin mənəvi məzmunu ilə seçilən duyğulu və qürurverici tədbir keçirildi. Şairə Dürdanə Qaraşovanın "Cəbrayıl şəhidləri" kitabının təqdimat mərasimi yalnız ədəbi hadisə kimi deyil, həm də milli yaddaşın qorunmasına xidmət edən mühüm ictimai-mənəvi hadisə kimi yadda qaldı.**



Tədbirdə rayon icra hakimiyyətinin məsul əməkdaşları, YAP fəalları, tanınmış ziyalılar, ədəbiyyat və mədəniyyət xadimləri, ictimaiyyət nümayəndələri, şəhid ailələri, qazilər, müharibə veteranları, müəllimlər və məktəblilər iştirak edirdilər. Zalda hökm sürən xüsusi ab-hava, iştirakçıların üzündəki qürur və kövrəklik hissləri tədbirin nə qədər dərin məna daşıdığını bir daha nümayiş etdirirdi.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirildi, Vətənimizin azadlığı, torpaqlarımızın bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Tədbirdə çıxış edən Cəbrayıl Rayon İcra Hakimiyyəti başçısının müavinləri Fəridə İbayeva və Tapdıq Nəsirov, filologiya üzrə fəlsəfə doktorları Tariyel Abbaslı və Tahir Şirvanlı, Azərbaycan Respublikası Şəhid Ailələri, Əlilləri və Müharibə Veteranlarının Müdafiəsi İctimai Birliyinin sədri, "Azərbaycan bayrağı" ordenli qazi Tahir Məmmədov və müavinləri, birliyin Cəbrayıl rayon şöbəsinin sədri qazi Səməd Atakişiyev, qazi Cəlal Xudiyev, YAP Cəbrayıl Rayon Təşkilatının sədr müavini Məhəmməd Əliyev, eləcə də şairlər Hidayət Səfərli, Kamal Fərhad, Musa Aslanxanlı və başqaları fikirlərini bölüşdülər.

Çıxışlarda xüsusi olaraq vurğulandı ki, Qarabağ uğrunda gedən müqəddəs mübarizədə Cəbrayıl rayonunun yüzlərlə igid oğulları misilsiz şücaət göstərərək tarix yazıblar. Onların qəhrəmanlığı yalnız bir dövrün deyil, gələcək nəsillərin də yaddaşında əbədi qalacaq şərəfli bir salnamədir. Bu qəhrəmanlığın yaşadılması, gələcək nəsillərə ötürülməsi isə hər bir vətəndaşın müqəddəs borcudur.

Qeyd edildi ki, bu baxımdan Dürdanə Qaraşovanın "Cəbrayıl şəhidləri" kitabı böyük əhəmiyyət daşıyır. Müəllif kitabda 337 şəhidin həyat və döyüş yolunu dərin həssaslıq və böyük məsuliyyət hissi ilə qələmə almışdır. Buradakı şeirlər insan talelərinin, arzuların, yarımçıq qalan ömürlərin təsirli bədii ifadəsidir.

Çıxış edənlər bildirdilər ki, Dürdanə Qaraşova sözə və milli yaddaşa sədaqəti ilə seçilən qələm sahibidir. Onun fəaliyyəti təkcə ədəbi yaradıcılıq çərçivəsində deyil, həm də böyük mənəvi missiyanın daşıyıcısı kimi dəyərləndirilməlidir. Müəllif öz əsərləri ilə tariximizi yaşadır, unudulmamalı həqiqətləri gələcək nəsillərə çatdırır, şəhidlərimizin xatirəsini sözün gücü ilə əbədiləşdirir.

Şəhid ailələrinin üzvləri də göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirdilər. Qeyd etdilər ki, belə tədbirlər şəhidlərin xatirəsinin yaşadılması, onların ailələrinin mənəvi cəhətdən dəstəklənməsi baxımından olduqca əhəmiyyətlidir. Eyni zamanda tədbirin ərsəyə gəlməsində əməyi olan rayon rəhbərliyinə, müəllifə, təşkilatçılara, eləcə də Cəbrayıl rayonu 8 saylı tam orta ümumtəhsil məktəbinin müəllim və şagird kollektivinə xüsusi təşəkkürlərini ifadə etdilər.

Tədbirin bədii hissəsində məktəblilərin ifasında müəllifin şeirləri səsləndirildi. Şagirdlərin səmimi və duyğulu çıxışları alqışlarla qarşılandı və bu anlar tədbirə xüsusi emosional rəng qatdı. Tədbirin aparıcısı, dil-ədəbiyyat müəllimi Zaur Vəliyev proqramın yüksək səviyyədə idarə olunmasını təmin etdi.

Sonda "Cəbrayıl şəhidləri" kitabı müəllif tərəfindən imzalanaraq oxuculara hədiyyə edildi. İştirakçılar kitabın əhəmiyyətini yüksək qiymətləndirdilər.

Bu təqdimat yalnız bir kitabın təqdimatı kimi deyil, həm də milli yaddaşın təntənəsi, vəfa borcunun ifadəsi və Vətənə sevginin parlaq nümunəsi kimi yadda qaldı. Bu bir daha göstərir ki, şəhidlərimizin xatirəsi daim uca tutulur və onlar xalqımızın qəlbində əbədi yaşayacaq.

*Hidayət SƏFƏRLİ*
*Şair-publisist, AJB-nin üzvü,*
*Qabaqcıl Təhsil işçisi*

# 40 İL SONRA...

**25 may 1986-cı ildə Cəbrayılın Yenikənd kənd orta məktəbində məzunlar üçün çalınan son zəng sadəcə doğma məktəbə vida zəngi deyildi, həm də yeni müstəqil həyat yollarına səsləniş zəngiydi.**











Başqa sözlə, qayğısız, şən uşaqlıq dünyasından qayğılı-əndişəli, kələ-kötürlü, təlatümlü-fırtınalı sərbəst dünyanın qoynuna çağırış zəngi idi 40 ildən əvvəlki səslənən son zəngin səsi. 40 il həm də uzun bir müddət olmaqla xalq düşüncəsində sakral rəqəmlərdən sayılan 40 rəqəmini özündə simvollaşdırır: 40 gün-40 gecə yol getmək, yaxud 40-cı otağın sirli-müəmmalı bir otaq kimi açılmasının yasaq olması və s. Elə 1986-cı ildən bu yana yaşadığımız - yol gəldiyimiz bu 40 il də nağıllardakı sirli-sehirli yolçuluqlar kimi bizlərə az şeylər yaşatmadı. Taleyin min cür oyunlarından, sınaqlarından keçdik, ağlımıza gəlməyənlər başımıza gəldi. Bu müddətdə müəllimlərimizdən də, sinif yoldaşlarımızdan da, doğmalarımızdan da gedər-gəlməz yolların yolçuları olanlar da oldu, ağır-əndişəli savaş meydanlarında ölümlərlə üz-üzə gəlib ölümü yenən, ölməzliyə ucalanlarımız da oldu, həyatla çarpışaraq yaşamaq uğrunda duruş gətirənlərimiz də oldu. Duruş gətirənlər sadəcə öz həyatlarını yaşamadılar, dünyadan köçənlərimizin əziz xatirələrini yaşatmaqla onların da yarımçıq qalmış arzu və əməllərini yaşatmalı oldular; bir də ki, yağı tapdağına keçmiş dədə-babalarımızın uyuduqları doğma və əziz, müqəddəs yurdlarımızı - vətən deyib əzizlədiyimiz vətən sevgisini könlümüzdə yaşatmaqla yadellilərdən azad etmək əzmini ruhumuzda yaşatmalı olduq. ”Quduran 40 gün çəkər” deyib babalarımız. Qudurğan düşmənlərimizin qudurmağı 40 ildə başa çatdı, bu qudurmaqlıq isə onlara baha başa oturdu. İçimizdəki sonsuz vətən sevgisi bizə yenilməz qələbə günü bəxş etdi.

Mayın 5-də Sumqayıtda dənizkənarı ”Buxara” əyləncə mərkəzinə yığışan 40 ilin məzunlarının da istəyi 40 il geridə qoyduqları birgə yaşadıqları qayğısız uşaqlıq illərinə xəyalən qayıdıb baxmaq və həm də aradan keçən bu qanlı-qovğalı illərin ağır məhrumiyyətlərinin ağrı-acılarını dənizin suyuna söyləməklə mənən özlərini boşaltmaq, daxilən yüngülləşmək idi.

Tədbirdə sinif rəhbərlərimiz olmuş müəllimlərimiz - rayonun Daşkəsən kəndindən olan tarix-coğrafiya müəllimi Vüqar Mədətov və Qaracallı kəndindən olan Azərbaycan dili-ədəbiyyatı müəllimi Möhübbət Seyidəliyev də bizimlə idilər. Onların çıxışları bir anlıq da olsa bizləri 40 ildən əvvəlki şagirdlik illərimizə qaytardı. Elə bil yenidən uşaqlaşdıq, məktəb partası arxasında oturmuş kimi hiss elədik özümüzü. İçimizdən ”kaş elə o illər olaydı. Atalı-analı, şən, bəxtəvər, dinc - qayğısız məktəb illəri... Yerimizdə - yurdumuzda, doğma vətən torpağında... Daha indiki kimi hərə öz evindən-eşiyindən didərgin, cəlayivətən bir həyat tərzi keçirməzdik...” Eh, insan dünyası çox qəribədir: bir anın içində haldan-hala düşür, ildırım sürətilə 40 ildən əvvəlki həyatı da qaytarıb xəyalında təzədən yaşayır. Amma heyhat, xəyala gələnlər ələ gəlməz. Şirin xəyallar ağuşundan silkinib real həyata qayıdırıq. Bu 40 ildə dünyalarını dəyişən müəllimlərimizi və sinif yoldaşlarımızı xatırlayırıq, xatirələrini hörmətlə anırıq. Görürük ki, yox, arzular-xəyallar tamam başqa şeylər deyir, həyat gerçəklikləri isə tamam başqa şeylər... Heç xəyal nədir ki, arzular özləri də çox vaxt olur ki, həyata keçmir. Ona qalsa, hər birimizin ürəyində uşaqlıqdan, gənclikdən tutduğumuz o qədər şirin arzular vardı ki... Hanı indi onlar? Düzdür, arxasınca qaçdığımız, inadkarlıq göstərdiyimiz arzularımızın bəzisinə çatdıqlarımız da olub, amma arzulardan doğan arzuların hamısına qoşmaq - çatmaq mümkünsüzdür...

Sinif yoldaşlarımız - oğlanlardan Cəlal Quliyev, Qənbər və Qurban Əzizovlar, Kamil və Sarvan Allahverdiyevlər, Azər Hüseynov, Üzeyir Əbilov, Əjdər Quliyev, Şəmsi Rüstəmov, qızlardan Tərgül Fərhadova, Arzu Alışova, Aygün Nəcəfova, Yeganə Muradova, Zərxanım Həsənova, Xatirə Lətifova, Xatirə Ağayeva, Təranə Abasquliyeva, Kübra Quliyeva, Vəsilə Hüseynova, İradə Hüseynova, Nuridə Qabilova, Ağgül Bayramova, Gülçöhrə Mehralıyeva, Mərziyə Əbilova, Lətifə Quliyeva, Arzu Abdullayeva, Sevda İbadova, Nəzakət İsmayılova... Hər biri 40 il bundan əvvəl səslənən son zəngin onlar üçün çaldığı həyat simfoniyasının əsrarəngiz notlarını riqqətlə dilə gətirdilər. Bəli, 40 rəqəmi özünün sirli-sehrli möcüzəsini göstərmişdi artıq. Çoxlarımızın xarici görünüşünə də elə ciddi dəyişiklik gətirmişdi ki, bəzən az qalırdı ki, bir-birimizi tanımayaq. Bu yerdə rəhmətlik anamın həmişə dediyi bir ifadəni yadıma salıram: ”Adam həmişə bir tük üstə qalmır ki...” Bu sözlərdən çıxış edib elə hamımıza deyirəm: yoxsa elə bilirdik ki, elə bir tük üstündə qalacağıq?.. Başımızdakı tükümüz də ağardı, hətta töküldü də. Təkcə zahiri görkəmimiz yox, elə daxili dünyamız da silkələndi, sarsıldı, zənginləşdi, dəyişildi də. Təki cansağlığı olsun. Növbəti dəfə doğma ellərimizdə, doğma yurdlarımızda - doğma məktəbimizdə yığışıb görüşmək nəsibimiz olsun! Amin!

***Şakir Albalıyev***

# İsmayıl İmanzadənin Xudafərin harayı

**Ömrün səksənini geridə qoyan İsmayıl İmanzadə imzası Cəbrayıllılara çox yaxşı tanışdır. "Əllərimin işığı" ("Yazıçı", 1987), "Gözümdə yaşayırsan" ("Gənclik", 1996), "Ömrümün bar çiçəyi" (Azərbaycan "Bilik" Maarifçilik Cəmiyyətinin "Bayatı" Sifariş Ədəbiyyatı Mərkəzi, 1998), "Qəriblikdə qalan dünyam" (Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatı, 2002), "Məni gözləyən var" ("Adiloğlu", 2008), "Suya söylədiyim yuxu" ("Təknur", 2011), 2 clddə "Seçilmiş əsərləri" ("Mütərcim", 2019), "Ömür muncuq düzümüdür" ("Qanun", 2023), "Ürəyim açıq qapıdır" ("ÇapArt" nəşriyyatı, 2025) və s. adda kitabların, habelə Samir Zəngəzurlu ilə birgə Xocalı faciəsindən bəhs edən "Ruhların qiyamı" (Azərbaycan "Bilik" Maarifçilik Cəmiyyəti, 1999) adlı publisistik kitabın müəllifi kimi oxucuların sevgisini qazanıb. Bundan başqa, şair İsmayıl İmanzadə haqqında "Halal ömrün söz halallığı" ("Yeni Poliqrafist", 2021) kitabı da ona ünvanlanan sevginin, dəyərin ədəbi ifadəsidir.**



Bütün yuxarıda sadaladıqlarım və sadalaya bilmədiklərim ədəbi yaradıcılıq məhsulları şair-publisist İsmayıl İmanzadənin ədəbiyyatdakı kimliyinin əyani göstəricisidir. Alim-publisist Tariyel Abbaslı ilə birgə yazdıqları Cəbrayıl şəhidlərindən bəhs açan ”Torpağın qanlı köynəyi” kitabı, habelə Cəbrayıl şəhidlərinə həsr olunmuş bu seriyadan olan digər iki kitab da şair-publisist İsmayıl İmanzadənin doğma rayonumuzun tarixi qəhrəmanlıq salnaməsinə dair yazdığı dəyərli kitablardandır.

Zəngin yaradıcılığı olan İsmayıl Səlim oğlu İmanzadə haqda geniş yazsam, şübhəsiz ki, bir monoqrafiya araya - ərsəyə gələr. Ancaq mən bu dəfə onun doğma Cəbrayılımızın ərazisində olan, o taylı-bu taylı Azərbaycanımızın birlik rəmzi olan Ulu Xudafərin körpüsünə həsr etdiyi şeirə münasibətimi ifadə edəcəyəm.

*Ay ulu daş kitabəm, gəcavəm, taxtım mənim.*
*Bakı-Təbriz biçimli könül paytaxtım mənim.*
*Vüsala həsrət qalan taleyim, baxtım mənim -*
*Şahım, xanım, sultanım - Xudafərin körpüsü.*

”Ulu daş kitabəm” müraciəti ilə şeirə başlayır müəllif. Daha sonra bu daş kitabəni gəcavə, taxt-tac kimi də mənalandırır. 2-ci misrada isə o tay-bu tay Azərbaycanımızın (vaxtilə paytaxt şəhərimiz olmuş Təbrizin və hazırda Şimali Azərbaycanın paytaxtı olan Bakının) ”Könül paytaxtı” olduğunu poetik vüsətlə söyləyir. Çünki Xudafərin körpüsü həm Arazın o tayında, həm də bu tayında olan soydaşlarımız üçün fiziki olaraq əl çatası - ayaq basılası mümkün olan bir müqəddəs məkandır. Bu baxımdan da şair bu ”daş kitabəni” könlümüzün - ruhumuzun paytaxtı kimi səciyyələndirir. Lakin növbəti misrada İsmayıl İmanzadə ”əl çatası - ayaq basılası” məsafə mənzilində olan bu tarixi körpülərə dövrün - zəmanənin gəc gərdişi ucbatından həsrət qaldığımızı acı hisslərlə dilə gətirir, onu ”vüsala həsrət qalan bəxtimiz-taleyimiz” adlandırır. Ancaq bütün deyilənlərə rəğmən ”Şahım, xanım, sultanım!” - deyə Xudafərinimizi öyüb-vəsf edir.

*Arazın sinəsində daşlaşan su sonası,*
*Tanrıya şükranlıqdır adının ilk mənası.*
*Vətənin iki qütbə parçalanmış dünyası -*
*Xəttim, imzam, ünvanım - Xudafərin körpüsü.*

Mif və əfsanələrimizdə daşa dönən qız-gəlinlərimizlə müqayisə fonunda ”Arazın sinəsində daşlaşan su sonası”na bənzətdiyi Xudafərin körpüsünün adının da ”Tanrıya şükranlıq - Xudaya afərin” olduğu diqqətə çatdırılır. Yəni vaxtilə bu körpünü böyük ustalıqla inşa edən babalarımızın bu yaradıcı - qurucu əməlinə baxıb ”Xudaya, afərin sənə” deyilməklə, körpünün adı da bu ifadədən qaynaqlanıb qalmışdır. Ancaq baxmayaraq ki, vaxtilə o tay-bu tay sahili bir-birilə əlaqələndirmək üçün Araz üstə salınmış bu Ulu körpü indi taleyin - zəmanənin gəc rəftarı nəticəsində ”Vətənin iki yerə parçalanmış dünyası” - yəni birləşdirici körpü yox, ayırıcı sərhəd rolunu oynayır. Lakin bütün bunların fövqündə yenə də Xudafərin körpüsü babalarımızdan əmanət qalan xəttimiz, imzamızdır - vətənimizin əbədilik ünvan yeridir.

*Hər aşrımın su yolu, hər tağın bir möcüzə,*
*Qəzəbin mürgüləyən sivri uclu bir nizə.*
*Bilən yox, daş dilində nələr deyirsən bizə -*
*Rəvayətim, dastanım - Xudafərin körpüsü.*

3-cü bənddə 11 aşırım və 15 aşırımdan ibarət Xudafərin körpülərinin hər tağbəndini möcüzə sayan şair İsmayıl İmanzadə aramıza ayrılıq salan cəlladlara bir gün Xudafərin üstə axışacaq insan selinin qəzəbinin sivri uclu nizəyə dönüb tuşlanacağı ideyasını dilə gətirir. Xudafərini daş dilində rəvayətlər, dastanlar danışan babanənələrimizin ruhu kimi təşxisləndirir.

*”Gülüstan”da boğulan səsimsən-avazımsan,*
*”Türkmənçay”da sərhəddə çevrilən Arazımsan.*
*Sağalmayan yaramsan, qanlı alın yazımsan -*
*Varlığım, and-amanım - Xudafərin körpüsü.*

Bu bənddə şair birbaşa tarixi faciələrimizə işarə edir, 1813 və 1828-ci illərdə Çar Rusiyası ilə İran arasında bağlanmış ”Gülüstan” və ”Türkmənçay” sülh müqavilələrinə əsasən Araz çayı və eləcə də Araz üstə tikilmiş Xudafərin körpüsü sərhədə çevrilib, get-gəl üçün yox, ayrılıq üçün nişangaha çevrildi. Beləcə o vaxtdan ”sağalmayan yaramız”, ”qanlı alın yazımız” kimi faciəvi tariximizə döndü. Ancaq hər nə olursa-olsun, Xudafərin körpüsünün varlığı elə bizim varlığımızın nişanəsidir; and-aman yerimizdir. Nə vaxtsa yenə də Xudafərin körpüsü öz əvvəlki missiyasına dönəcək, Arazın o sahili ilə bu sahilini bir-birinə bağlayan, get-gəlləri təmin edən müqəddəs körpü rolunu şərəflə daşıyacaqdır.

Şair İsmayıl İmanzadənin milli duyğularla döyünən vətənpərvər ürəyi Xudafərin körpüsü adlı müqəddəs tarixi abidəmizi bu cür bədii-poetik ölçülərlə tanıdıb - dəyərləndirir. Şair bu körpüləri başı qovğalar çəkmiş, üstündən taleyin qara yelləri əsmiş bir formada təşxisləndirir. Çünki körpünün vəzifəsi insanlara xidmətdən ibarətdir. Üstündən karvanlar aşırıb insanları bir-birinə qovuşdurmaqdan, istədikləri mənzilə tez yetişdirməkdən ibarətdir.

İsmayıl müəllimin özü də körpü timsalındadır: Ulularımızın səsini-harayını özünün yaradıcılıq aləmindən keçirməklə bizlərə - bu günkü və gələcək nəsillərə çatdırır. Yaradıcılıq enerjiniz daim coşub-çağlasın, İsmayıl müəllim. Sizə yeni yaradıcılıq uğurları və sağlam firavan ömür, doğma Xudafərinimizdə, Cəbrayılımızda yaşamaq və yazıb-yaratmaq arzulayıram!

***Şakir Albalıyev***
***filologiya elmləri doktoru***

# İnstitutun əməkdaşları beynəlxalq simpoziumda məruzə ediblər

**9 may 2026-cı ildə Avrasya Akademisyenler Birliyi Derneğinin təşkilatçılığı ilə Ankara Belediyyesi Ulus Genc Akademi Konferans salonunda online formatda keçirilən 21. Yüzyılda Türk Dünyası ve Sosyal Bilimler II Uluslararası Sempozyumunda AMEA Folklor İnstitutunun əməkdaşları məruzə ediblər.**







İnstitutun ”Mifologiya” şöbəsinin aparıcı elmi işçisi, fil.ü.e.d., dosent Şakir Albalıyevin həm moderatoru olduğu, həm də məruzə etdiyi ”Azerbaycan: tarih, folklor ve mədəni miras” adlı bölmədə alim ”Balkan türklərinin əsli və folkloru: tarixi yanaşmalar və hazırkı vəziyyət”, İnstitutun ”Cənubi Azərbaycan folkloru” şöbəsinin böyük elmi işçisi Lalə Şabanova isə ”Cənubi Azərbaycan folklorunda aşura mərasimləri: ritual-semantik təhlil və mədəni yaddaş” mövzusunda məruzələr ediblər.

Məruzələrdə müasir dövrdə folklorun aktual məsələlərinə nəzər salınmış, onların həlli ilə əlaqədar təkliflər edilmişdir. Məruzələrin nəşri nəzərdə tutulmuşdur.

***Aygün Məmmədova,***
***tarix üzrə fəlsəfə doktoru***

# FƏRZALI ABBASƏLİOĞLU - 70

## Yubiley tədbirindən qeydlər

**Mayın 9-da Bakıda yerləşən İrəvan Dövlət Azərbaycan Dram Teatrının binasında həmyerlimiz şair Fərzalı Abbasəlioğlunun anadan olmasının 70 illik yubileyi münasibətilə "Bir ömürdə iki dünya yaşadım" adlı ədəbi-bədii-musiqili tədbir keçirildi. Dövlət Himnimiz səsləndirildi, şəhidlərimizin xatirəsi anıldı. Daha sonra Dram Teatrının əməkdaşı səhnəyə çıxıb, şair Fərzalı Abbasəlioğlunun həyat və yaradıcılıq yolu barədə tədbir iştirakçılarına ümumi məlumatları çatdırdı.**



Milli Məclisin üzvü Ceyhun Məmmədov kürsüyə dəvət olundu. Ceyhun müəllim çıxışında qeyd etdi ki, şükürlər olsun torpaqlarımız işğaldan azad olunub. Bu gün ölkə prezidenti Cəbrayılın Şükürbəyli kəndinin açılışında iştirak edib və kənd sakinlərinə mənzillərinin açarlarını təqdim edib. Əlbəttə, torpaqlarımızın işğalçılardan təmizlənməsi dövlətimizin yürütdüyü uğurlu xarici siyasətin bəhrəsi, vətən fədailərinin özlərini fəda etməsinin nəticəsində olub. Ancaq bu sahədə qələm adamlarının da, o cümlədən Fərzalı Abbasəlioğlunun vətənpərvər ruhlu şeirləri də mənəvi cəhətdən mühüm rol oynayıb. Cəbrayıl imanlı insanların yurdudur. Təsadüfi deyil ki, burada bizimlə müqəddəs Çələbilər nəslinin nümayəndələri də iştirak edir. Torpaqlarımızın işğaldan azad olunmasından sonrakı 2-ci mərhələ torpaqlarımıza qayıdışdır. Arzu edirəm ki, şair Fərzalı Abbasəlioğlu doğma kəndində - Sirikdə də yaşasın, yaratsın, növbəti ad günləri, yubileyləri doğma yurdumuzda qeyd olunsun.



Aparıcılıq üçün söz AYB-nin Lənkəran bölməsinin sədri yazıçı-publisist Qafar Cəfərliyə verildi. Qafar müəllim çıxışında qeyd etdi ki, mən bu tədbirdə bir sıra səbəblərə görə iştirak edirəm. O, Fərzalı Abbasəlioğlunu 1948-ci ildən tanıyıb, dostluq etməsindən, I Qarabağ müharibəsində Cəbrayılda döyüşlərdə olmasından və s. danışıb, Fərzalı müəllimi Cəbrayıllı və Cəbrayılsız günlərdə də tanıdığını qeyd edib, xatirələrini dilə gətirdi. Bildirdi ki, F.Abbasəlioğlu imzası Azərbaycanda tanınan təsdiq olunan şairdir. Qafar Cəfərli tədbirə AYB-nin sədri Anar müəllimin məsləhəti ilə qatıldığını da qeyd edib, AYB-nin Fəxri diplomunu şair Fərzalı Abbasəli oğlu Həziyevə təqdim etdi.

Səhnəyə bəstəkar-ifaçı Nadir Bayramlı dəvət olundu. O, F.Abbasəlioğlunun yazdığı "Vətənə getməyim gəlir" mahnısının bəstələnmə və ifa olunma tarixçəsindən söz açıb, ifa etdi.

Tədbirdə iştirak edən Qasım Çələbi, Əlyənağı Çələbi, Müstəqim Çələbi də Fərzalı Abbasəlioğlu yaradıcılığından söz salıb, yaradıcılıq uğurları arzuladılar.

Azərbaycan Ali Məhkəməsinin hakimi olmuş Şıxlar kəndindən olan hüquqşünas Əli Rüstəmov çıxışında qeyd etdi ki, Sirik eli böyük eldi-camaatdı və şair Fərzalı da o kəndin böyük yetirməsidir. Şairlərin başqa dünyası olur, amma Fərzalı yorulmadan yazdı-yaratdı və heç vaxt da öz el-obasından ayrı olmadı. Yenə də ona doğma Sirikdə sağlam canla yazıb-yaratmağı arzulayıram.

Şairə Əzizə Ağahüseyn qızı "Qoşma" ədəbi məclisinin Fəxri diplomunu Fərzalı Abbasəlioğluna təqdim etdi, ona həsr etdiyi şeirini oxudu.

İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru Zivər Abbasova çıxışında Fərzalı müəllimə üz tutub dedi ki, siz söz, ruh sahibi olduğunuz üçün bu gün bizim Dram Teatrının yaddaşında əbədi qalacaq. Necə ki, Qarabağımız işğaldan azad olunub, inanıram ki, İrəvana da qayıdacağıq və sizin yubileyinizi İrəvanın özündə İrəvan Dram Teatrında qeyd edəcəyik. Zivər xanım onu da sevinc və fəxarət hissi ilə diqqətə çatdırdı ki, Fərzalı müəllimin oğlu Natiq də bu Dram Teatrında aktyor kimi çalışmaqla kollektivin doğma və sevilən üzvünə çevrilib. Bu mənada bu yubiley həm də bizim də kollektivimizin şənliyidir və belə oğul böyütdüyü üçün də yubilyara təşəkkür etdi.

Teatrın keçmiş direktoru olan Əməkdar mədəniyyət işçisi İftixar Piriyev də şairə xoş təbriklər ünvanlayıb, Natiqin bu Dram Teatrında aktyor kimi sevilən rollar ifa etdiyini bildirdi. Hər ikisinə yaradıcılıq uğurları arzuladı.

Şamaxıdan tədbirə təşrif gətirmiş sənətkar Rafiq müəllim özünün əl işi nümunəsi olaraq araya-ərsəyə gətirdiyi sənət əsərini yubilyara təqdim etdi.

Tədbirdə söz-sənət adamlarından Salyandan təşrif buyurmuş Loğman, Aşıq Ədalət Dəlidağlı, Təranə Gədəbəyli, Sona Nərimanqızı, şairə-aşıq Aişə Səyyadqızı, Şakir Bakiroğlu, Arzu xanım, Niyaz İlyasoğlu, şair Fərzalı Abbasəlioğlunun nəvələri və başqaları şairin şeirlərini ifa etdilər, rəngarəng musiqilər ifa etdilər, dəyərli təbrik nitqləri söyləyib gül buketləri hədiyyə etdilər.

Sonda şair F.Abbasəlioğlu şeirlərindən nümunələr söyləyib, tədbirin təşkilatçılarına, iştirakçılara minnətdarlıq duyğularını ifadə etdi. Yubilyarın oğlu Natiq bəy də atasına səmimi təbriklər işığında iştirakçılara təşəkkürlərini çatdırdı.

***Şakir Əlifoğlu***

# Yaxşılıq heç vaxt unudulmur

**Bir neçə həftə bundan əvvəl vacib işimlə əlaqədar Mətbuat prospektindəki nəşriyyata getmişdim. İkinci mərtəbədə yaxın dostum, məşhur yazar, filologiya üzrə fəlsəfə doktoru, uzun illər yorulmadan "Xudafərin" qəzetinə redaktor olmuş, hazırda da həmin qəzetin təsisçisi və yenə də redaktoru olan Şakir Albalı ilə çox səmimi görüşdük. Qısa hal-əhvaldan sonra o, əlindəki qəzet toplusundan birini tez çıxarıb verdi mənə və fərəhlə dedi: - Bəhram müəllim, nə yaxşı rastlaşdıq, elə sizi axtarırdım. Bu da "Xudafərin"in təzə nəşr olunan nömrələrindən biridir. O, tez əlindəki qəzetlərdən birini də açıb mənə göstərdi. İlk baxışdan qəzetin tərtibatı diqqətimi çox cəlb etdiyindən qəzeti ani olaraq tez nəzərdən keçirməyə başladım. Birinci səhifədəncə qəzetin "Ulu Xudafərin" adı altında çap edildiyini gördüm.**

Doğrusu, qəzetin yeni adla çap olunması məni lap çox maraqlandırdı. Mənim çox təəccübləndiyimi görən Şakir müəllim sevincək dedi: - Bəhram müəllim, çox da təəccüblənməyin. Müəyyən səbəblərə görə bu ildən rayon qəzetlərinin nəşri dayandırılıb. Bizim rayon qəzeti də onlardan biridir. Mən rayon qəzetimizin nəşrinin dayandırılmasına dözə bilmədim, qərara gəldim ki, özüm maliyyələşdirim, əzab-əziyyətinə də dözüm...

"Xudafərin" sözünün qarşısına da "Ulu" sözünü özüm əlavə etdim. Qoy indi də bu ad altında çap olunsun. Elə hiss edirəm ki, bu ad daha çox yerinə düşüb. Bu yeni ad altında qəzetimizin çap olunması yenə də böyük oxucu kütləsinin marağına səbəb olacaq. Hər yeni nömrəsi əvvəlki nömrələr kimi yenə də rəğbətlə qarşılanacaq, geniş oxucu kütləsinin qəlbinə yenə də yol açacaq. Hər nömrəsinin yolu həyəcanla, çox intizarla gözləniləcək. Əldən-ələ gəzəcək yenə də.

Qəzetçilik işində dərin bilgiyə, geniş təcrübəyə malik olan çox təssübkeş, hədsiz dərəcədə vətənpərvər olan, zəhmətsevərliyi sayəsində elmi nailiyyətlər qazanmış, hal-hazırda da filologiya elmləri doktoru kimi geniş ictimaiyyətdə tanınan elm adamına, yaxın dostum Şakir Albalıya qarşı qəlbimdə olan rəğbət hissi lap aşıb-daşdı. Onun hədsiz dərəcədə yurd-yuva sevər, çox qeyrətli, çox hünərli vətənpərvər bir oğul olduğunu əvvəldən də bilirdim. İndi qəzet sahəsində də atdığı bu çox cəsarətli, hünərli addımı gənc alimin kim olduğunu bir daha üzə çıxartdı. Onun "Xudafərin" sözünün adının əvvəlinə "Ulu" sözünü, təyinini də əlavə etməsi lap yerinə düşüb. Çünki qədim mədəniyyətimizin əvəzsiz, unikal incilərindən olan Qərblə-Şərq arasında böyük ticarət əlaqələrini tarixən yaradan da qədim Xudafərin körpüləridir.

Fəxrlə deyə bilərik ki, bu möhtəşəm körpülər çox ulu əsrlərdə izi qalan qədim mədəniyyətimizin tarixi etalonudur. Bu ulu etalonumuz çox qədimlərə gedib çıxır. Bu da bizim tarixi qürur yerimiz, mədəniyyət sahəsində də böyük qürurverici nailiyyətlərimizdir.

Hörmətli Şakir müəllim, fərəhlə deyə bilərəm ki, uzun illər müxtəlif adlar altında müxtəlif redaktorların rəhbərliyi ilə çap olunmuş hazırkı rayon qəzetimiz həmişə Cəbrayıl əhalisinin çox sevimli, istəklisi olmuşdur. Fərəhlə demək olar ki, onun hər nömrəsi daim əldən-ələ gəzmişdir. Bu barədə tanınmış qəzetçi, məşhur alim Həsən bəy Zərdabi yerində demişdir: "Sən xalq üçün çalış, o da sənin qədrini bilsin".

Fərəhlə deyə bilərəm ki, rayon qəzetimiz nəşrə başladığı ilk günlərdən Cəbrayıl əhalisinin mənəviyyat güzgüsü olmuş, o əhali ilə birlikdə yaşamışdır. Heç şübhəsiz ki, bu da orada çalışan jurnalist kollektivinin dərin savadından, geniş dünyagörüşündən, yaradıcılıq qabiliyyətindən irəli gəlir. Doğrudan da, rayon qəzetimiz həmişə əhalinin birlik səsi olmuşdur.

23 avqust 1993-cü ildə rayonumuz erməni vandalları tərəfindən qəflətən işğal edildi. Əliyalın köməksiz qalan əhali öz doğma ata-baba torpaqlarından, isti yurd-yuvalarından perik salındı. Rayon əhalisi öz doğma yurdlarından perik düşərək Respublikamızın 58 rayonunda məskunlaşmalı oldular. Çətinliklərlə, müxtəlif məhrumiyyətlərlə üzləşməli oldular. Uzun illər yurd həsrətinə, torpaq nisgilinə dözməli oldular. Belə bir çətin məqamda qəlbləri göyüm-göyüm göynəyən əhaliyə mənəvi cəhətdən ancaq "Xudafərin" dayaq oldu. Bir-birlərindən aralı, çox uzaq düşən əhalinin yaralı qəlblərinə ancaq "Xudafərin" təsəlli oldu. Yanan qəlblərə, təşnə ürəklərə gətirdiyi yeni-yeni xəbərlərlə xeyli yüngüllük verdi. İmdada çatdı, köməyə yetdi. Əziz bir tutiyə kimi də onu hamı qoruyub saxlamağı özlərinə borc bildi. Hətta ciblərində gəzdirənlər də oldu, dəyərli bir xatirə kimi qorunub, saxlandı.

Hörmətli Şakir müəllim, qəzetlə bağlı bir xatirəmi heç vaxt unuda bilmirəm. Onu daim tarixə çevrilmiş bir əziz xatirə kimi daim yada salıram, xatırlayıram.

Yaxşı yadımdadır. 1966-cı ilin oktyabrıydı. Qonşu Şükürbəyli kənd orta məktəbində oxuyurduq. 11-ci sinifdə olduğumuza görə boş vaxtımız az olurdu. Bu çətinliyə baxmayaraq, biz - Murad, Həsən və mən tez-tez rayon qəzetinə müxtəlif mövzulu məqalələr də yazırdıq. Hamısı da çap olunurdu. O vaxtlar Şükürbəyli kənd orta məktəbi bir akademiya kimi tanınırdı. Orada çox savadlı müəllimlər dərs deyirdilər. Bizim məqalələri qəzetdə oxuyanda hətta onlar da çox sevinir, bizi təbrik edirdilər.

Heç yadımdan çıxmaz. Bir gün, həftənin 5-ci günü, axşamçağı rayonun mərkəzinə getdik. Məqsədimiz "Kolxozçu" qəzeti redaksiyası ilə tanış olmaq idi. Bir çaylağın üstündəki dəmir körpüdən keçib sağ tərəfdə yerləşən böyük binanın qarşısına gəldik. Öyrəndik ki, düz gəlmişik. O binada da redaksiya yerləşirdi. Bizi qapıda səliqəli geyinmiş, qara saçlarız az seyrəlmiş bir kişi qarşılayıb dedi: - Gözəl balalar, yəqin redaksiyaya gəlmişsiniz. İndi vaxtınız olub, gec deyil, lap yaxşı vaxtdı. Hamı işdədir.

- Bəli, dedik.

- Gəlin içəri gedək. Redaktor Sirac müəllim də otağındadır.

Biz dərhal onunla bərabər içəri keçdik. O, bizi qarşıdakı otağa aparıb, salam verəndən sonra dedi, hörmətli Sirac müəllim, bu şagirdlər Şükürbəyli orta məktəbindən redaksiyayla tanış olmağa gəliblər. Məqalələri qəzetdə çap olunur.

- Çox yaxşı, əziz balalar, bura redaksiyadır, mən redaktoram. Sizi gətirən işçi də müavindir, Ədil müəllimdir. Sizin yazıları oxuyuram. Çalışın, yaxşı oxuyun, bizimlə də tez-tez əlaqə saxlayın. Həmişə çalışın ki, gələcəkdə xalqımızın layiqli vətəndaşları olasınız. Öz dərin savadınızla, hərtərəfli biliyinizlə xalqımıza, vətənimizə gələcəkdə çox xeyir verərsiniz. Vətənimizin sizə çox ehtiyacı olacaq.

Həmin gün o görüşdən sonra biz sanki böyük bir zəfər qazanmışdıq. Sevincimiz yerə-göyə sığmırdı. Təhsilə qarşı qəlbimizdə xüsusi bir maraq oyanmışdı həmin görüşdən sonra.

Hörmətli Şakir müəllim, bu epizodu ona görə xatırlamalı oldum ki, verilən dəyərli məsləhət, göstərilən düzgün yol insan həyatında həmişə əsas, aparıcı rol oynayır. Adam sonradan keçdiyi həyat yoluna diqqətlə nəzər yetirəndə bu dəyərli məsləhətləri tez-tez xatırlamalı olur. Bu dəyərli məsləhətləri deyənlərə, xeyirli yol göstərənlərə Allahdan rəhmət diləyirsən. Onlara borclu olduğunu bir daha düşünməli olursan. Belə mənalı görüşlər, dəyərli məsləhətlər heç vaxt unudulmur.

Deyirlər ki, böyük rus tənqidçisi V.Q.Belinski məşhur yazıçı Qoqolun "Şinel" hekayəsini çox maraqla oxuyandan sonra deyib: "Bizim hamımız Qoqulun "Şinel"indən çıxmışıq. Onun sayəsində biz yaranmışıq, tanınmışıq. Biz bunu heç vaxt unuda bilmərik. Ona daim borcluyuq, ona minnətdar olmalıyıq.

Hörmətli Şakir müəllim, bunu deməklə məqsədim odur ki, bizim hamımızın ilk yazılarımız rayonumuzda nəşr olunan, rayon əhalisinin mənəvi güzgüsü hesab olunan, həmişə həvəslə yolu gözlənilən rayon qəzetində çap olunub. Mətbuat sahəsində bizə ilk sevinci, əvəzsiz fərəhi rayon qəzetimiz bəxş edib. İllər ötdükcə biz yavaş-yavaş Respublikamızda çap olunan müxtəlif qəzet və jurnallara doğru addımlamışıq. Rayon qəzetimizin bizə verdiyi bu ilk sevinc, fərəhləndirici stimullar illər keçdikcə yavaş-yavaş artmağa başlayıb. Qazandığımız böyük uğurlar bizə həmişə yeni ruh verib, sevincimizi, fərəhimizi daha da artırıb. Bizim hamımızı daim yeni-yeni uğurlar qazanmağa sövq edib. Bu cəhətdən də biz hamımız sevimli rayon qəzetimizə daim minnətdar olmalıyıq. Onu daim yaşatmaq, çap etdirmək, ona dayaq olmaq, bizim hamımızın borcudur. Çünki o ən çətin məqamlarda da bizə müxtəlif məlumatlar çatdırıb. Nə qədər çətin olsa da, həmişə rayon əhalisi ilə birlikdə olub, heç vaxt əhalidən ayrılmayıb. O, həmişə köməyimizə çatıb, dar məqamlarda da imdadımıza yetib. Hətta qaçqınlıq həyatı yaşayanda da öz maraqlı xəbərləri, yeni-yeni məlumatları ilə yurdyuva nisgilli, torpaq həsrətli qəlbərə yeni-yeni xəbərlər çatdırıb. Doğma yurd-yuvası üçün göyüm-göyüm göynəyən qəlblərə təsəlli verib, kömək olub.

Sizin də "Xudafərin" qəzetinin çətin məqamında son anda köməyinə yetib, onun yenidən yaşamasına kömək etməyiniz, sizin - məşhur bir yazarın, tanınmış bir elm adamının mərdliyindən, xeyirxahlığından, tükənməz səxavətindən və vətənpərvərliyindən xəbər verir. Bu münasibətlə mən də sizi ürəkdən təbrik edir, sizə can sağlığı, uzun ömür arzulayıram.

Şair sizin kimi vətən, el-oba qədri bilən ər oğullar haqqında yaxşı deyib:

Oğul ki vətənə, xalqa oldu yar,
Ananın başına güllü tac qoyar.

***Bəhram Sarıcallı (Zeynalov)***
***Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,***
***Ali kateqoriyalı ingilis dili müəllimi***

# Bir qazinin uğur hekayəsi

**İdrisli Pərvin Hüseyn oğlu 1992-ci ildə Gəncə şəhərində anadan olmuşdur. Əslən Cəbrayılın Sirik kəndindəndir.**

2009-cu ildə ADAU-nun iqtisadiyyat fakültəsinin "dünya iqtisadiyyatı" ixtisasına qəbul olmuş, 2013-cü ildə həmin ixtisasın "Xüsusi istedadlar" qrupunda təhsilini başa vurub.

Hərbi xidməti daha vacib hesab edən Pərvin 2013/2014-cü illərdə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun "Kiçik Soyuq" deyilən hərbi hissədə hərbi xidmət keçib.

2014/2015-ci illərədə ADAU-nun beynəlxalq əlaqələr şöbəsində əmək fəaliyyətinə başlayıb, 2016-cı ildə Azərbaycan və Macarıstan Respublikalarının Dövlətlərarası kadr



hazırlığı proqramı əsasında təşkil edilən imtahanlarda müvəffəqiyyət qazanaraq Macarıstanın Debrecen Universitetinin "aqrobiznez və menecment" ixtisası üzrə magistraturaya qəbul olunmuşdur. 2018-ci ildə həmin ali təhsil müəssisəsini fərqlənmə diplomu ilə bitirmişdir. Gənc kadr kimi müxtəlif yerlərə dəvət alsa da, vətəninə qayıtmağı üstün tutmuşdur.

2018- ci ildən Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Kredit və İnkişaf Agentliyində gənc kadr kimi fəaliyyətə başlayır. Elmi-tədqiqat işinə olan maraqla Pərvin 2019-cu ildə ADAU-da Ümumi İqtisadiyyat ixtisası üzrə qiyabi doktoranturaya qəbul olmuşdur.



2020-ci ildə Qarabağ uğrunda II Vətən savaşında İdrisli Pərvin Hüseyn oğlu torpaqlarımımzın azadlığı uğrunda Kənd Təsərrüfatı Nazirliyi işçi heyətində ilk savaşa yollanan könüllü oldu.

Yaxşı yadımdadı: 26 sentyabr günü Bakıdan Gəncə çağırış məntəqəsinə gəlməliydi. Hazırlaşırdıq görüşünə gedək. Lakin xəbər etdi ki, sabah tezdən gələcəm. Sabahı erkən Çağırış Məntəqəsinə getdim. Hər kəsin sifətində min bir düşüncəylə dərin bir susqunluq vardı.

Mənim uşaqlıq dostum Hüseyn müəllim Pərvinlə nəsə danışırdı. Dedim qoy ata-bala rahat söhbət etsinlər. Bir az aralandım. Az keçməmiş Pərvinin yüksək tonda iradı ildırım kimi ətrafa yayıldı. Etmə, Ata! Səndən imtina edərəm.

Hüseyn müəllim hərbi xidmətlə əlaqədar hansısa imtiyazı haqqında ona nəsə demişdi.

Beləcə, onu məntəqəyə təhvil verib, hamı kimi işin sonunu gözləməli olduq.

Ali Baş Komandan və xalqımızın monolit birliyindən ruhlanan ordumuzun cəbhədən cəbhəyə zəfər dolu azadlıq yürüşü hamıda bir inam hissi formalaşdırdı. Qələbə yaxındaydı.

Müharibənin qurtarmasına sayılı günlər qalmışdı, İdrisovlar ailəsində də gərgin intizar dolu bir ab-hava hökm sürürdü. Bir ziyalı kimi hərbi vəziyyəti qiymətləndirən Hüseyn müəllim çox yüksək səbr və iradə



nümayiş etdirirdi. Nəhayət, bir gün bizə gəlib əsl həqiqəti açdı:

- Açıb-bükə bilmirəm, - dedi, qardaş. Uşaqdan 7 gündür xəbər yoxdur.

Artıq bu ağır, müşkül vəziyyət hamını üşüdürdü. Elə bu arada qəfil bir zəng hər şeyi dəyişdi.

Şuşanın alınması uğrunda gedən ölüm-dirim savaşında yaxınlığa düşən minamyot mərmisinə tuş gələn döyüşçü qrupun bütün üzvləri kimi bu partlayışdan zədə alan Pərvin də hərbi xəstəxanaya yerləşdirilmişdi.

"Seyfəli" döyüş hazırlığı düşərgəsindən başlayan və Füzulinin-Hadrutun-Şuşanın-Laçının azadlığı uğrunda gedən döyüşlərdən keçən Pərvin, hərbi birləşmənin tərkibində kövrək uşaqlıq xatirələri ilə dolu olan, axarlı-baxarlı dogma Cəbrayıla və ordan Qubadlıya üz tutdu.

Elə Qubadlıda da Zəfər xəbəri ilə müharibəni başa vurdu.

2020-ci ilin dekabr ayının 27-də ordudan tərxis olunan Pərvin İdrisli Kənd Təsərrüftaı Nazirliyinin Aqrar Kredit və İnkişaf Agentliyində iş yerinə qayıtdı.

Müharibənin yekunlarına görə, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən 2020-ci ilin dekabr ayında imzalanan Fərmanla İdrisli Pərvin döyüşlərdə şücaətinə görə "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Qeyd edim ki, İdrisli Pərvin Hüseyn oğlu Yeni Azərbaycan Partiyasının da fəal üzvüdür.

2024-cü ildə dokturanturanı başa vuran Pərvin Dissertasiya işini müvəffəqiyyətlə müdafiə etdi. Sənəndlərini Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasına təqdim etdi. 2025-ci ilin 8 iyununda iqtisad elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsinə layiq görüldü.

Respublikanın Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzində yüksək perspektivli kadrlardan biri kimi işində məsuliyyətli və verilən tapşırıqları Avropa təhsili və işgüzarlığı səviyyəsində yüksək dəqiqliklə və vaxtında yerinə yetirir.

Adətən Avropa təhsil tərbiyəsi görmüş gənclərimiz ölkədə işləməyə çətin adaptasiya olunur. Lakin yüksək milli vətənpərvərlik sayəsində Pərvin kollektivə uyğunlaşmış, bacarığı ilə rəğbət qazanmışdır. Onun vətənpərvərliyi, dürüstlüyü və vətəndaşlıq borcuna sadiqliyi də xüsusi qeyd olunmalıdır.

İntizamlı, məsuliyyətli və peşəkar mütəxəssis olan Pərvin İdrisli Qazi kimi də, döyüşlərdə qazandığı medalı, elmi dərəcəsi, 3 dil bilməsi ilə də özünü xüsusi imtiyazlılıq iddiasından uzaq tutur. Bütün bunlara rəğmən xalqıma və dövlətimə xidmət etmişəm deyir.

Fiziki və mənəvi hazırlıq səviyyəsini yüksək saxlayan, öz üzərində işləyən, bilik və bacarıqlarını artırmağa səy göstərən Pərvin kimi dürüst, səmimi, savadlı və bacarıqlı gənclər cəmiyyətin sərvəti, millətimizə başucalığı gətirən əsl gənclik örnəyidir.

***Vaqif Mirzalıyev,***
***ADAU-nun dosenti***

# İnstitutun alimi Milli Azərbaycan Tarixi Muzeyində məruzə edib

**9 aprel 2026-cı ildə Milli Azərbaycan Tarixi Muzeyində "Bir dastanın yaddaşı – bir xalqın tarixi" adlı tədbir təşkil olunub. Tədbir 9 aprel – "Kitabi-Dədə Qorqud" Gününə həsr edilib.**



Tədbir Milli Azərbaycan Tarixi Muzeyinin İnnovasiyalar və təhsil proqramları şöbəsi və Bakı Biznes Universitetinin Humanitar Elmlər kafedrası ilə birgə əməkdaşlıq çərçivəsində baş tutub.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbirdə AMEA Folklor İnstitutunun "Mifologiya" şöbəsinin aparıcı elmi işçisi, filologiya elmləri doktoru Şakir Albalıyev "Kitabi-Dədə Qorqud": müqəddimə işığında görünənlər" mövzusunda məruzə etmişdir. Məruzəçi dastanın milli-mənəvi dəyərlərin formalaşmasında rolundan bəhs edərək, eposun obrazları ilə atalar məsəllərinin müasir filoloji tədqiqatlarla müqayisəli təhlil etmiş və tədrisdəki əhəmiyyətində diqqət ediləcək məqamları vurğulamışdır.

Daha sonra çıxış edən Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşları, Bakı Biznes Universitetinin müəllimlərinin məruzələrində "Kitabi-Dədə Qorqud" dastanının Azərbaycan xalqının tarixi yaddaşındakı yeri, müxtəlif sahələr üzrə tədqiqinin mühümlüyü və müasir araşdırmalarda tətbiqi barədə məlumat verilib.

Tədbirin bədii hissəsində "Dədə Qorqud" filmindən qısa fraqment nümayiş olunub, tələbələrin ifasında dastandan şeirlər səsləndirilib. Eyni zamanda Dədə Qorqud obrazı və Oğuz igidlərindən bəhs edən səhnəcik təqdim edilib.

Tədbirin sonunda iştirakçılara təşəkkürnamələr təqdim edilib.

## *Folklorşünas Şakir Albalıyev:*
## "Novruz bayramı insanların dünyanı, təbiəti dərk etməsi çağlarından başlayır"

**Tərcümədə "yeni gün" mənasını verən Novruz, Orta Asiyadan Yaxın Şərqə qədər uzanan geniş coğrafi ərazidə yaşayan xalqlar tərəfindən 21 martda qeyd olunur.**

Qədim dövrlərdən bəri müxtəlif xalqlar yazın başlanğıcını, kənd təsərrüfatı fəaliyyətlərinin başladığını və məhsul mövsümünü qeyd ediblər. Məsələn; qədim Babildə Akitu festivalı adlanan bayramlar ilin ilk ayı hesab edilən aprelin ilk on iki gününə təsadüf edirdi. İbranilər birinci, altıncı, yeddinci və doqquzuncu ayların ilk günlərini Yeni il günü kimi qeyd edirdilər. Mənşəyi Kənanlılara gedib çıxan israillilərin yeddi günlük Pasxa festivalı da ilin ilk ayında arpa yığımı ilə üst-üstə düşürdü.

Novruz şənliklərinin harada və nə vaxt başladığı məlum olmasa da, Novruzun Zərdüştlükdən əvvəlki dövrlərdən mövcud olduğuna dair müxtəlif məlumatlar mövcuddur.

Folklorşünas Şakir Albalıyev Bizimyol.info xəbər portalına açıqlamasında bildirib ki, Novruz bayramı insanların dünyanı, təbiəti dərk etməsi çağlarına dayanır.

"İnsan şüuru dünyanı və dünyanın yaradılışını dərk etdiyi o dövrdə dünyaya metaforik fəlsəfi yanaşma tərzi yarandı. Novruzun fəlsəfəsi də dünya yaradılış fəlsəfəsidir. Yəni yaradılışın necə bərqərar olması, insanın dünyaya münasibəti və sair kimi sualların cavablarını özləri üçün aydınlaşdıranda Novruz bayramı düşüncədə formalaşmağa başladı.

Novruz yaranış bayramıdır. Su, od, yel və torpaq dörd yaranış ünsürünün bunların əsasında yaranış bərqərar olunur, həyat canlanır. Həyatın rəmzi fəlsəfi mənası timsalında bahar fəslinin gəlişi şərəfinə Novruz bayramını keçirməyə başladılar"- deyə Şakir Albalıyev qeyd edib.

"Dörd yaradılış ünsüründən biri də oddur. Od çərşənbəsi də məhz həmin oda bağlı inamı özündə əks etdirir və xalq inanclarında od müqəddəs olmuşdur"-deyə Şakir Albalıyev bildirib.

"Od çərşənbəsində tonqal üzərindən tullanma ənənəsinin tarixi mənşəyi odun təmizləyici missiyası ilə bağlıdır. Bu adət də o simvolik mənanı daşıyır ki, insanlar od üzərindən tullanmaqla özlərini təmizləyirlər.

Od həm də təmizləmə vasitəsidir, necə ki, su təmizləmə vasitəsidir, odda yandırma da həm təmizləmə vasitəsidir. İnsanlar oddan adlamaqla özlərinin keçmiş dərdlərini, yaralarını odda yandırmaq şəklində düşünmüşdülər. Necə ki, su ilə insan həm fiziki, həm də mənəvi baxımdan təmizlənir, od da belə bir missiyanı öz üzərinə götürüb. Odun üstündən atılmaqla "ağırlığım, uğurluğum odlara" deməklə keçmiş dərdi -səri- bəlanı qovmağı və növbəti Novruzda təzə ab- hava ilə mənəvi baxımdan təmiz halda adlamağı düşünmüşlər"-deyə folklorşünas əlavə edib.

Şakir Albalıyev qeyd edib ki, Novruzun tarixi Zərdüştlüyün tarixindən daha çoxdur: "Novruzun fəlsəfəsinin, Novruzun odla bağlı müqəddəs görüşlərinin zərdüştlüyə təsiri kimi düşünmək lazımdır. Novruzda odla bağlı olan müqəddəs ünsürlər, müqəddəs ənənələr, davranışlar zərdüştlük dinində də təqdir olunmuş və zərdüştlüyə də öz əsaslı təsirini göstərmişdir. Yəni od müqəddəs hesab olunur. Eyni zamanda bu müqəddəslik Novruzun da kökündə, fəlsəfəsində dayanır. Yəni Zərdüştlük Novruzdan təsirlənib".

Folklorşünas hesab edir ki, bu bayramın tarixi bəşərin dünyanı dərk etməsi dövründən hesablanır, o dövrdən başlanır və minillər keçib.

"Bu bayram elə bir nəhəng mədəniyyət hadisəsidir ki, təbii ki, onda müəyyən dəyişmələr də, əvəzetmələr də olub, olması təbiidir. Amma bu dəyişmələr-transformasiyalar o qədər ləng şəkildə gedir ki, insanlar hiss edə bilmirlər ki, bu dəyişiklik baş verir. Bunu ancaq tədqiqatlar yolu ilə, alimlərin araşdırmaları yolu ilə müəyyən etmək mümkündür"- deyən folklorşünas bildirib ki, Novruz bayramı İslam və Türk dünyasında, Şərq ölkələrində qeyd olunur.

Şakir Albalıyevin fikrincə, bu bayram Türk-İslam dünyasının, Şərq dünyasının ortaq mənəvi-mədəni bayramıdır.

Qeyd edək ki, tarixən od və su ilə əlaqəli elementlər Novruz şənliklərinin ən görkəmli aspektlərindən biri olub. Novruz günü və axşamı insanlar meydanlarda yanan tonqalların ətrafına toplaşır, günahlarından təmizlənmək və bəxtlərini yaxşılaşdırmaq üçün onların üzərindən tullanırlar. Bəzi türk tayfalarında Novruz günündə dəmir qızdırılır və odda döyülür. Novruzdan əvvəl buğda və mərcimək kimi dənli bitkilər isladılır və cücərdir.

***İradə Cəli***

# Yaddaş ağrısı



Şövkət Zərin Horovlu

**BİRİNCİ HİSSƏ**

*"Heydərbaba, gələmmədim gec oldu"*
*M.Şəhriyar*

Qarşımdadır ağ varağım, qələmim,
Çisəkləyir yenə də dərd-ələmim,
Bəxt yazana əlim yetmir, bir deyim -
Nədən belə sonsuz oldu ayrılıq?
Cəhənnəmə gedən yoldu aylırıq?

Zirvədə çən, dağda duman sürünür,
Yolun sonu görünmür ki, görünmür,
Bu fələyin qəsdi nədir, bilinmir.
Balasızdı indi orda yuvalar,
Yurd quşunu çöl bayquşu qovalar.

Qalıb yaz həvəsli gəncliyim orda,
Atalı-analı dincliyim orda,
Beşiyim, evciyim, hardasız, harda?!
Sanmayın ki, balan dönük çıxıbdı,
Gördükləri onu yaman yıxıbdı.

Nədən yolu "Diridağ"dan salmayım? -
Səhər-səhər gül hüsnünə dalmayım,
Can dərmanı havasını almayım.
Kim alıbdı əlimizdən bu haqqı? -
Şər köhlənə mindiribdi nahaqqı.

İlk sevgimi necə gedib gəzməyim?
Tellərimə gül-çiçəklər düzməyim,
Qol götürüb el toyunda süzməyim.
Yaş artdıqca ürək yaman kövrəlir,
Torpaq çəkir, il üstünə il gəlir.

Dostlar, məndən sormayın nə həvəsdi,
Ürəyimdən havalanan bir səsdi,
Sizsiz mənə bu gen dünya qəfəsdi.
Dərd üstə dərd verir Tanrı, bəs demir,
Biz piyada, zaman atlı, gözləmir.

Yağılardan bu hesabı sormasaq,
Haqq yolunda Misri qılınc çalmasaq,
Yurdumuzun qayğısına qalmasaq,
Kimdi gəlib halımızı soruşan? -
Bundan yana pərişanam, pərişan.

Lələk sala göydən durna qatarı,
Yaza biləm bu ağrını, qübarı,
Gedə bilsəm Xudafərin yuxarı
Qanad açar Savalana ruhum, oy!
Məndən öndə şax yeriyə ordum, oy!

Ömür keçir, ürək hələ söz dolu,
Tüstülənir sinəm altı köz dolu,
Görəmmədim o yerləri göz dolu.
Dağlarının gül bələnən anında
Kaş olaydım "Şıx" bulağın yanında.

Qız görsəniz yanaqlan allanan,
Qolda sənək kəhriz üstə sallanan,
Baxışından necə ürək hallanan
El qızının vüsal eşqi canında,
Gözləyəydi Xan çinarın yanında!

Vaxt dolanar, o dağlara gün doğar,
Gülüstandan gül göndərər yara yar,
El köçünü yaylaqlara haylayar.
Dost, tanışlar məni sizdən soranda,
Deyin, odur "Xəlfə bağ"ın yanında.

Uşaq idik, hərəmiz bir məhlədən,
Əyin-başı geyinərdik köhnədən,
Yarımazdıq nə saçdan, nə təhnədən.
Ehtiyacdan gözlərimiz axardı,
Yazıq anam köks ötürüb baxardı.

Çöldə başaq toplayardıq əlinən,
Xırman vaxtı fırlanardıq vəlinən[1],
Arpa-buğda sovurardıq yelinən.
Elin varı aləmə car olanda
Şənlənərdik, biz də "Yal"ın yanında.

"Orta kəhriz" nəğmələnib axanda,
Cavan-cayıl xəyallanıb baxanda,
Köç yellənib "Üçtəpə"yə qalxanda
Mirsiyab da at belinə yataydı,
Güllər bacı murazına çataydı.
**Vəl -** *arpa-buğda döyən alət*

Qoca dünya, Mirsiyabı neylədin?
Gənc Nəsiri, nər Vahidi neylədin? -
Qardaş getdi, canı ruhdan eylədin.
Ondan özgə əzizim yox, giram[1] yox,
O gedəli qapımdan bir girən yox.

"Gözəlağa qaçan dərə" durumu?
"Daşlı güney" yolçuları yorurmu?
Qonşu Əziz çöldə dəryaz vurumu?
Qurulurmu dərzlərinin[2] tayası -
Axtarardıq altında quş yuvası.
**Giram -** *əziz, yaxın*
**Dərz -** *sünbül bağlaması*
***
Atam Qulam duz-çörəkli kişiydi,
Xeyrə-şərə çox gərəkli kişiydi,
Tikəsini bölüşmək vərdişiydi.
Ondan sonra növrağımız dağıldı,
Eh, nə deyim, ömür də bir nağıldı!

Ustad - deyib Xudayarı öyərdi,
Yad eləyib ruhuna baş əyərdi,
Kim kəm baxsa ona, nankor - deyərdi.
Mərd olublar bizim köhnə kişilər,
İndi hanı sözü bütöv igid, ər?

Etibarlı dost idi Ağamurad,
Kolxoz sədri Cəmil, Əşrəf və Ziyad
El içində qazanmışdı təmiz ad.
Qan düşsəydi bağlayardı obada,
Ağsaqqala hörmət vardı ziyada.

Məmiş kişi mülayimdi, fağırdı,
Həyətində tut çırpdırıb yığardı,
Nübar bibim qoyun-inək sağardı.
Ələ düşməz bir də pendir dürməyi,
Yadımdadı şaqqıldayıb gülməyi.

Həmid dayı kasıbların dayağı,
Tanınırdı Zeynalabdin[1] sayağı,
Süfrəsindən əskilməzdi qonağı.
Qapısını bağlamazdı gələnə,
Darda onu ümid yeri bilənə.

Əvəz kişi qoruyardı bağları,
Nişanlardı budaqları, zoğları,
Qopartsaydın bir salxımı, bir narı,
Duyuq düşüb hənirini alınca
Ağacını tolazlardı dalınca.

Salxımların sulananda qorası
Dolaşardıq meynələrin arası,
Qoruqçunun qurtarmazdı davası.
Yazıq anam eyləyərdi and-aman,
Qardaş-bacı dəcəl idik biz yaman.
**Bakı milyonçusu -** *xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev*

"Kəndaltı"dan gətirərdik odunu,
Mal-qaranın yoncasını, otunu.
Anam Zərin çırmalayıb qolunu
Ard unundan[1] bizə kömbə[2] salardı,
O gün evdə əsil bayram olardı.

Amma özü sevinc nədi bilməzdi,
Hey ağlardı, bir yol üzü gülməzdi.
Ana nənəm "Quycaq"lı qız Gülgəzdi.
Cavan gedib, kam almayıb dünyadan,
Yetim qalıb anam, xalam o vaxtdan.

Mələk mamam - qardaşqızı, - deyərdi,
Saçımızı darayardı, hörərdi,
Kənd adına "kələ Mələk"[3] deyərdi.
Hünərliydi, beş kişinin əvəzi,
Qılınc kimi kəsərliydi hər sözü!

Göyçək arvad eyləyərdi biş-düşü,
Doxsanında düşməmişdi bir dişi,
Qurşağında badam, noğul, kişmişi.
Əldə çəlik mağar boyu süzərdi,
Bəy-gəlinə şam yandırıb düzərdi.

Yadigardı o, "Mollalı" elindən,
Bayatısı heç düşməzdi dilindən.
Yasovulun, yüzbaşının əlindən
Baş götürüb bizim elə gəlmişdi,
Horovlunu ümidgahı bilmişdi.

Ələsgərin qoz ağacı çinardı,
Bar gətirdi, qol-qanadı sınardı,
Xudu, Vəli çırpıçıydı, çırpardı.
Biz də elə tökülüşüb yığardıq,
Böyük-kiçik canbir qəlbdə olardıq.

Surxay kişi vardı, "Yal"da ambardar,
Doldurardı ambarlara hər nə var,
Düzülərdi divar boyu çuvallar.
Kim apardı, haqq-hesaba vurardı,
Gözü daim qapan[1] üstə olardı.

Eh, yadıma nələr düşdü, a dostlar -
Çatdığımız o tonqallar, ocaqlar...
Surumcaqda[2] yellənərdik o ki var.
Səs yayıldı, - Yusif mərəkə salıb,
Sevdiyini kəhriz üstdən qaçırıb.

Dədə-baba adətimiz beləydi,
Giley-güzar, umu-küsü heç nəydi,
Bağışlardıq, suçlu qapı döysəydi.
Çox çəkmədi ailələr barışdı,
Toy şənliyi o bayrama qarışdı.

Köç qalxanda "Yellicə"dən, "Çaxmaq"dan,
Göz doymazdı o yerlərə baxmaqdan,
Nə biləydik, haylar elə o vaxtdan
Yiyələnib qoynu cənnət dağlara,
Həsrət qoyub bizi göy yaylaqlara.

Yaylaqdaydıq, söz öz vaxtına çəkər,
Qurulardı alaçıqlar, dəyələr.
Bulaq üstə enəndə qız-gəlinlər
Biz də xəlvət alaçıqdan çıxardıq,
Ətək-ətək kəklikotu yığardıq.

Qalmayıbdı o qız-gəlindən biri! -
Dünya durur, işindədi xəlbiri,
Gah sevinci, gah gətirir kədəri.
Bu dünyanı heç görmədim gözütox,
Onun da bu vərdişinə mizan yox.

Qələm yanır, gözlərimi yaş alıb,
Söz köhlənim yenə yaman baş alıb,
Yaddaş məni uzaqlara aparıb.
Bacarmadım, xatirələr dil açdı,
Nə qoruyub saxladımsa qazancdı.
Ruhum sizdə qalıb, quru can məndə,
Karıxmışam ömrümün qış ilində,
Gəlmək yasaq, ixtiyar yox əlimdə.
Nolardı bir bəxtim çəkə gətirə,
O yerləri yenə görəm bir kərə.

"Ocaq damı"[1] - orda bir el yatıbdı,
Allah, indi ot-ələfə batıbdı -
Ruhların harayı sənə çatıbmı?!
Xanım anam məzarında dardadır,
Nigarandı, oğlu-qızı hardadır?

Çoxu burda başa vurub ömrünü,
Nakam gedib, daşa vurub ömrünü.
Qoca dünya neylədin bəs Tellini? -
Anam köçdü gözüyaşlı dünyadan,
Yarımadı bacısından, nə ondan.

Orta məktəb çox az idi o illər,
Cəbrayılda dərs alırdıq bir təhər,
Məhəmmədə, Mahmuda çox heyiflər.
Eh, dünyada kim əbədi qalandı,
Yenə könlüm qəm əlində talandı.

Qorxmaz Bayram elə sinədəftərdi,
Bir nəfəsə neçə şeir deyərdi,
Yetim Hüseyn ac-yalavac gələrdi.
Nə qoysaydı Göyçək nənəm çantama,
Hər gün dərsdə yetirərdim mən ona.

Çəp düşərdi sözümüz kənd arası,
Qızışardı sünni, şiə davası,
Vuruşmağa qalardı bir çarası -
"Əfəndilər" bərk hücuma keçərdi,
Horovlunun əlindən dad çəkərdi.

Nə gözəldi o küsüşüb barışmaq!
Qımışaraq qucaqlaşıb sarışmaq,
Bir-birinə hünərindən danışmaq.
Çox çəkməzdi, girərdik biz qol-qola,
Çantamızı alıb çıxardıq yola.

Qara dava başa çatan illərdi,
Qıtlıq, aclıq üzə duran illərdi.
Azar-bezar can aparan illərdi.
Güləbəstə o il qarda batmışdı,
Nənəm dedi, qaraçuxası yatmışdı.

Qonşu Niyar yıxılı evin dirəyi,
O qız daşdan çıxarardı çörəyi,
Səvzə, Zərif Seydillinin[1] göyçəyi.
Allah, necə gözəl canlar var idi,
Topdağıtmaz xanimanlar var idi.

Mələk mamam elə Novruz gəldimi
Günə çıxarardı fərməş, cecimi,
Hərdənbir də yoxlayanda mücrünü
Dam-bacadan pusqu qurub güdərdik,
O mücrünün sirri nədir, bilərdik.

Rəndavanın işi-gücü davaydı,
Özü qoçaq, ağzı bir az yavaydı,
Telqaranın toxuduğu hanaydı, -
Kafiyadan qalardımı heç geri?
Qızıl idi ilmə vuran əlləri.

Horovlunun çətənəsi, gəcəfi,[1]
Tut bağları, şərabı şan-şərəfi,
Gəlinlərin əriş-arqac kələfi.
Boyaqçılar min bir rəngdə boyardı,
Naxışlara baxanda göz doyardı.

Bir aləmdi, dən dolması, daşması[2],
Salmasaçaq ayran aşı, dovğası,
Əyirdəyi[3], qovudu, qovurqası,
Eh, necoldu, damağımda dad qaldı,
Pərən düşdük, obamızı yad aldı.

Göldən suyu aparardıq arx ilə,
Dəyirmanı fırladardıq çarx ilə -
Gülməmməd də haqq alardı nırx[4] ilə.
Qara dava nə vardısa almışdı,
El-obalar quru yurda qalmışdı.

"Daşqaraltı", "Mərəndi"ni dərərdik,
"Sarı karva"nı çardaqlara sərərdik,
Dost-tanışa ondan pay da verərdik.
Tutulardı gilənarın xonçası,
Bal əriyi, yay alması, alçası.
**Ard unu -** *taxıl üyüdüləndən sonra xəzinədə qalan un*
**Kömbə -** *kökə*
**Kələ Mələk -** *qoçaq, mərd*
**Qapan -** *daş tərəzi*
**Surumcaq -** *yelləncək*
**Ocaq damı -** *məzarlıq*
**Seyidlər məhləsi**
**Gəcəf -** *bitki növləri*
**Daşma -** *düyüdən hazırlanan xörək*
**Əyirdək -** *şirniyyat*
**Nırx -** *sabit, dəyişməz qiymət*
***
Beşiyimdi Horovlunun qucağı,
Kim söndürdü babam çatan ocağı? -
Tərlan yurdum oldu sarlar yığnağı.
Günahsız qan, doğru deyib atalar,
Yerdə qalmaz, nankorları tez tutar.

Qarlı dağlar necə düşdü araya,
Dərd dil açıb, dərman varmı yaraya?
Güzarınız bir də düşsə oraya,
Məni də bir yad eyləyin, a dostlar,
Əlvida yox, salam deyin, a dostlar.

Məclislərdə məndən də bir söz deyin,
Sizsiz dərdim burda oldu yüz, - deyin,
Ölənəcən yolda qaldı göz, - deyin.
Dərd çoxaldı, boşalmadı ürəyi,
Qınamadı nə bəxti, nə fələyi.

Tanrı haqdı, ədaləti itirməz,
Belə zülmü nə yer, nə göy götürməz,
Ana torpaq yada şenlik1 bitirməz.
Az qalıb, yağının burnu ovular,
Duman keçər, sular axar, durular.

Qara günü toplamışıq indi biz,
Hara gedək, harayadı yönümüz?
Qərib eldə zülmət keçir günümüz.
Cələklənib əsir getdi qız-gəlin,
Od-ocağı söndü doğma ellərin.

Oğru kimdi, doğru kimdi bilinmir,
Gözümüzün kədəri heç silinmir,
Yolun sonu görünmür ki, görünmür.
Süfrəmizdə yer vermişdik haylara,
Nə biləydik qol açırıq şahmara.

Yavan qaldıq, yağ da axar yağ sarı,
Naşıdadır köçümüzün avsarı,[1]
Fayda yoxdur, ha inildə, ha zarı.
Kələfimiz namərd əldə dolaşıb,
Oba köçüb, düşmən gəlib yurdlaşıb.

Düşmən köhnə, təzələnən dövrandı,
Vaxta baxmır, fitnə-fəsad hamandı,
Baş açmırıq çox qarışıq zamandı.
Desək də ki, hər işdə biz milliyik,
Birimiz fars, birimiz rusdilliyik.

Dözümün də olar səddi, hörgüsü,
Aramızda salaq ümid körpüsü,
Havalansın türkün zəfər türküsü.
Arxımızdan sular yenə axacaq,
Qarı düşmən yana-yana baxacaq.

Qardaş getdi, fələk vurdu belimdən,
Dərya doldu göz yaşımın selindən,
Ana yurdum, heç düşmədi dilimdən.
Yolumuzdan qara duman sovuşa,
Həsrət könlüm o yerlərə qovuşa!

"Ağoğlan"dan əsən yellər, apar, gəl!
Ürək səndə bir tavana tapar, gəl!
Tələs, durma, xoş müjdəli çapar, gəl!
Zümrüd quşu, qanadına al məni,
Anam yatan məzarlığa sal məni...

Ziyarətim, şaman dağım, ay ulum!
Bir yaxın gəl, qoy könlünü mən alım,
Həsrətliyəm, ay başına dolanım.
Qazan, Basat intiqamı alar, hey!
Ağ çadırda Beyrək toyun çalar, hey!

Əzəlki tək səsin gəlsin gur yenə,
İnan, sənsiz ağız verməz gor mənə!
Əlim yetmir o əlçatmaz zirvənə.
Ətəyini Məkkəm bilib gəlim, oy!
Axır gündə qucağında ölüm, oy!

Qoy sinəndə ocaq çatsın igidlər,
Ağ at minib, yala yatsın igidlər,
Qılınc çalıb, şeşpər atsın igidlər.
"İç Oğuz"um, "Dış Oğuz"um bir olsun,
Vuran-tutan oğulları var olsun!

Ana yurdun od-ocağı sönməsin,
Boz qurdumuz, boz köpəyə dönməsin,
Bayrağımız ucalardan enməsin!
Son sözünü desin Milli Ordumuz,
O tay-bu tay bütövləşsin yurdumuz!

Sal qayatək versək kürək-kürəyə,
Sərhədlərdə dönsək polad dirəyə,
Bölünmərik bir də Güney-Quzeyə.
Aramızda həsrət buzu əriyər,
Vətənimin Araz yası kiriyər...

**İKİNCİ HİSSƏ**

Heydərbaba, görüşmürük nə vaxtdan,
Boylanırıq, elə gendən, qıraxdan,
Yarımadıq nə taledən, nə baxtdan.
Çərxi - zaman yedəyində saxladı,
Biləmmədik kim haqsız, kim haqlıdı.

Ağlamaqdan gözdə yaş da qalmayıb,
Ta seyrəlib, başda huş da qalmayıb,
El çəkilib, yar-yoldaş da qalmayıb.
Dünya kordu, bizi görmür nədəndi? -
Haqqı nahaq, nahaqqı haqq edəndi.

Həminkiyik, dövran yenə tərs gəlir,
Sizdən bizə elə ağlar səs gəlir,
Bu nə işdi, saydığımız nəhs gəlir?!
Heydərbaba, hayqır Babək oyansın,
Qarı düşmən öz qanına boyansın.

Sal yolunu Savalana, Ərkə sən,
Yatmışları oyadasan bəlkə sən,
Üzülsə də, haqq qırılmaz, biləsən.
Cavab verər bir bütünü bölənlər,
Qızılbaş yurdunu yalan bilənlər.

Üsyan donu geysin yenə Təbrizim!
Haqq sözünü desin yenə Təbrizim!
Ərdəbilə, Gilanadı bu ərzim!
Səttarxanı, Xiyabani hardadı? -
Ellərimiz çənə düşüb, dardadı.

İntizarda getdi dədə Şəhriyar,
Milyonların ürəyində yeri var,
"Gülüstan"dan[1] dastan yazdı Bəxtiyar.
Bu torpağı kimdi belə bölənlər?
Bu nə cürət, nə cəsarət, nə hünər?!

Çox deyirik, aman-aman ayrılıq!
"Hər bir dərddən olar yaman ayrılıq"!
Çöküb üstümüzə duman, ayrılıq!
Fələk qoymur yenə verək əl-ələ,
Dala çəkir zaman bizi il-ilə.

Qardaş deyir "hay"a, indi bu farslar,
Tor toxuyub min bir hiylə qururlar,
Fitnəsindən əl götürmür uruslar.
Ara qatıb yenə gendə dururlar,
Türkün daim kürəyindən vururlar.

Bulanmışdıq, biz də axıb duruldu,
Təzələndik, özülündən qurulduq,
Toparlandıq, dar ayaqda bir olduq.
"Dəmir yumruq" bir məxrəcə vurdu da,
Önümüzdə şax yeridi Ordu da.

Azadlığın tamın indi dadmışıq,
Qınaqları üstümüzdən atmışıq,
Zənn etmə ki, dincəlmişik, yatmışıq.
Qarı düşmən hələ qazdan ayıqdı,
Siz sarıdan ümidimiz qırıqdı.

Xan Arazın köhnə buzun əritdik,
Anaların göz yaşını kiritdik,
Biz qeyrəti, cəsarəti dirilttik.
Bütün dünya əhsən! - dedi millətə,
Gücümüzdən düşmən gəldi heyrətə.

Qırx dörd günə başa gəldi bu zəfər,
Vətənləşdi neçə igid, neçə ər,
Şəhidliyi şərbət kimi içdilər.
Düşmənləri xəzəl kimi ovmuşuq,
"İti qovan kimi" yuvasına qovmuşuq.

Heydər baba, nələr oldu, gör nələr!
Canavara, şirə döndü igidlər,
Əliyalın Allahu-Əkbər dedilər.
Fəth etdilər Laçın, Şuşa qalasın,
Sağaltdılar Oğuz elin yarasın.

Koroğlular, Səttərxanlar dirildi,
Qisas günü qollar yaytək gərildi,
Yağı leştək ayaqlara sərildi.
Qalanlar da silahları atdılar,
Qaçıb rusun kölgəsində yatdılar.

Mübarizi, Poladları yetirdik,
Bizi min yol öldürdülər, dirildik,
Dağ aşıran selə döndü bu birlik.
Birliyimiz bizə "dəmir qol" oldu,
Azadlığa qovuşduran yol oldu.

Sərkərdəmiz - igid əsgər, vur! - dedi,
Silahının səsi gəlsin gur, - dedi,
Sərhədlərdə dirək kimi dur - dedi.
Topçu Vüsal görün nələr eylədi,
Sərrast atıb, düşmən bağrı teylədi.

Türk elləri bayram etdi Şuşada,
Qopuz çaldı, yallı getdi, Şuşada, "Cəngi",
"Misri" cövlan etdi havada.
Fərəhləndik, həm güldük, həm ağladıq,
Düşmən bağrın biz də belə dağladıq.

Xan Arazın seli-suyu sevindi,
Xudafərin bəzəndi, al geyindi,
Bayrağımız körpü üstdə öyündü.
Nisgilimiz göy sularda yox oldu,
Zəfərimiz yaman gözə ox oldu.

Üç min oğul, üç min igid itirdik,
Məzarında qərənfillər bitirdik,
Yol gözləyən yurda zəfər gətirdik.
Elə dedik - təki Vətən sağ olsun,
El yanında qoy üzümüz ağ olsun.

Yurd salırıq, qurur, tikir xalqımız,
Qeyrətindən təməl tökür xalqımız,
Qılıncıyla sərhəd çəkir ordumuz.
Şimşək kimi çaxır igid oğullar,
Düşmənləri oda yaxır, oğullar!

Qucaqlaşır iki lider, iki türk,
Səs salır dünyaya, birlik, böyüklük,
İndi iki dövlət, tək bir millətik.
Ruhumuzda ədalət var, qeyrət var,
Alnımızda zəfər adlı şöhrət var.

Yenə qalxdı at belinə türk oğlu,
Gizir, qazi, hərəsi bir Koroğlu! -
Təzələndi Turan yolu, türk yolu!
Ayılanda böyük olur türk, dema,
Yol verməriк bir də qarı düşmənə!

İki böyük türk yetirdi bu dövran,
Burda İlham, orda Tayyib Ərdoğan!
Qardaşlığı car etdilər Şuşadan.
Türk bayrağı daim qoşa duracaq,
Turan adı dildə dastan olacaq.

Ta yetişib, baba, Babək nəslimiz,
Bələdçisi soy-kökümüz, əslimiz,
Əzəlkitək gurlaşıbdı səsimiz.
Yağı düşmən gendən-genə hürəcək,
"Dəmir yumruq" öz işini görəcək.
**Şenlik -** *bağ-bostan*
**Avsar -** *yedək*
**Gülüstan -** *"Gülüstan" sülh müqaviləsi*

**Epiloq**

Xankəndidə dalğalanır bayrağım,
Dünyaya yayılır zəfər sorağım,
Gözəl Qarabağda şölələnir ocağım!
Bu zəfəri vəsf etməkdən doymaram,
Bayrağımı bir də enə qoymaram!

**1995-2021-2023**

№ 05-06 (09-10) 11 may 2026-cı il
ULU XUDAFƏRİN

## Şövkət Zərin Horovlu-85



# Şairə-yazıçının yubileyi



**Aprelin 23-də AYB-nin Natəvan klubunda tanınmış yazıçı-şairə Şövkət Zərin Horovlunun 85 illik yubileyi keçirildi. Yubilyarın 85 yaşı ərəfəsində araya - ərsəyə gələn və Rəfail Tağızadənin redaktorluğu ilə nəşr olunmuş "Sözə vurulan naxışlar" (Füyuzat", 2026) kitabı da dəyərli söz adamlarının və alimlərin Şövkət xanımın yaradıcılığı haqda təhlil xarakterli yazıları özündə əks etdirməklə tədbir iştirakçılarına hədiyyə olundu.**

Tədbiri giriş sözü ilə Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid açdı. Şövkət Horovlunun həm şeir, həm də nəsr aləmində mühüm uğurlarından bəhs açdı. AYB-nin sədri Anar müəllimin imzasıyla yazılmış AYB-nin Fəxri diplomunu yubilyara təqdim etdi.

Daha sonra tədbir şair-tənqidçi Əsəd Cahangirin aparıcılığı ilə davam etdirildi.

Ş.Z.Horovlu yaradıcılığından danışan Əsəd Cahangir 1950-1960-cı illərin əvvəllərində yazıçı ola bilməyin çətinliyindən söz açdı. Qeyd etdi ki, Şövkət xanım birdən-birə gəlib şair olmayıb. Həyatın bir çox çətinliklərindən keçərək gəlib bu zirvəyə yüksəlib. Xüsusən də xanım üçün, həyat yoldaşı olmaq, ailə-məişət qayğıları və həm də yazar olmaq çətindir. Şövkət Horovlunun həyat yolu müharibələrdən keçib: Böyük Vətən müharibəsi, Əfqanıstan müharibəsi və Qarabağ müharibəsinin içindən keçən Şövkət xanıma bu müharibələr sağalmaz yaralar vurub və bu ağrı-acılar onu müdrikləşdirib. Onun yaradıcılığından bu amillər qırmızı xətt kimi gəlib keçib. Başlıca mövzusu vətənpərvərlik olan şairənin yaradıcılığında iki mühüm xətt nəzərə çarpır: Azərbaycanımızın vəhdəti və Qarabağ mövzusu.

Daha sonra Əsəd Cahangir Şövkət Zərin Horovlunun poeziyasında M.Şəhriyarın və S.Vurğunun mühüm təsirinin olduğunu qeyd edib, şeirlərindən nümunələr səsləndirib, onun milli ruhlu bir şair olduğunu vurğuladı. Şövkət xanımın yaradıcılığının bir hissəsini də nəsr əsərlərinin təşkil etdiyini diqqətə çatdıran Ə.Cahangir sözü "Ədəbiyyat qəzeti"nin əməkdaşı Sərvaz Hüseynoğluya verdi.

Sərvaz müəllim çıxışında Ş.Z.Horovlu yaradıcılığının özünəxas cəhətlərinə toxundu, faciələrimizin bədii salnaməsini yazdığını qeyd etdi. Bildirdi ki, vətəndaşlıq duyğusu ilə yazdığı əsərlərində insan necə olmalıdır sualına bədii ustalıqla cavab verir. Onun gənclik duyğuları yaradıcılığının indiki dövründə də ana xətti təşkil edir, - deyə yazıçıya gənclik enerjisi və yazıb-yaratmaq uğurları arzuladı.

Filologiya üzrə fəlsəfə doktoru Adil Cəmil çıxışında qeyd etdi ki, Şövkət xanım ədəbiyyata şeirlə gəlib, sonradan nəsrə keçib. Nəsr yazmaq hər yazarda uğurlu alınmır. Ancaq Şövkət xanımda dünya duyumu var. Onun təsvir etdiyi məkanlarla tanışlığı - həyati materiallar kitabında dolğun şəkildə öz əksini tapır. Ümumiyyətlə, ədib sözlə davranmağı bacarmalıdır. Qadın yazarlar arasında Şövkət Zərin Horovlu mühüm uğurlar qazanıb və ona yeni-yeni uğurlar arzulayıram.

Rəfail Tağızadə çıxışında Şövkət Horovlu yaradıcılığında Qarabağ mövzusunun qırmızı xətt kimi keçdiyini qeyd etdi: "Ömür nağılı" kitabında yazıçının güclü yaddaşa sahib olması sayəsində mühüm məqamlara toxunduğunu və bunun yaradıcılığa güclü təsiri olduğunu dilə gətirdi. Vətən ağrısı, həsrət, cəmiyyətin ağrıları kimi məsələlər onun yazılarında əsas yer tutur...

Tarixçi alim Lətifə xanım Şövkət xanımı fəaliyyətdə olan məhsuldar yazıçı kimi xarakterizə edib, aforizmlərindən danışdı.

Təranə Məmməd çıxışında vətənə bağlı bir yazar olan Şövkət xanımın həyatda çox əziyyətlər görsə də, ucalıqda qalmağı bacardığını dedi. Bildirdi ki, əsərində kişi xarakterlərini çox güclü verə bilir.

Filologiya elmləri doktoru Esmira Fuad Şövkət Horovlunun həm şeirdə, həm də nəsrdə uğurla çıxış etdiyindən danışıb, onun haqqında bir neçə dəfə yazdığını, hətta bu yazılardan birinin Amerikada çap olunduğunu diqqətə çatdırdı.

Nasir Həcər Paşayeva "Şövkət xanımın şeirlərini həm modern, həm də klassik üslub kimi qəbul etmək olar", - deyib ona cansağlığı, uğurlar arzuladı.

Kəmalə Abiyeva: - Şövkət xanımın poeziyasını, nəsrini oxuyursan, yazıb-yaratmağa həvəslənirsən. Dili aydın, səlisdir, şeiri elə bil adamla söhbət edirmiş kimi təhkiyədədir. Oxucu özünü orada görə bilir.

"Yeni təfəkkür" qəzetinin baş redaktoru Əməkdar jurnalist Şəmsiyyə Musaqızı Şövkət xanımla bağlı xatirələr işığında söz açdı, dedi ki, Şövkət xanım deyir ki, Böyük Vətən müharibəsi onun uşaqlığını əlindən alıb. Allah o qədər sağlam ömür versin ki, gedib doğulduğu Horovlu kəndində yaşasın-yaratsın və itirdiyi uşaqlıq illərinin əvəzini çıxsın.

Şairə-yazar Sevda Səfərli: - Arazın qızı, Turan sevdalısı, quzeyli-güneyli Azərbaycanımızın qızı kimi Şövkət xanımdan söz açıb, qeyd etdi ki, o, Təbrizi mərd, qoca Təbriz kimi təsvir edir. Mən onu qürurlu xanım kimi sevirəm.

Tədbirdə yazar Nüşabə Məmmədli, "Yada düşdü" jurnalının baş redaktoru Nəzakət Məmmədli, nasir-şair, tərcüməçi Kamran Nəzirli, bu sətirlərin müəllifi olan mən - Şakir Əlifoğlu, qəzəlxan Mahcamal xanım, "Vətəndən vətənə" kitabının müəllifi Mənzər Niyarlı, filoloq-alim Mərziyyə Nəcəfova, şairə Arzu Nehrəmli, yazar Əntiqə Qonaq, Elmira Aslanxanlı, dosent Ramidə xanım və başqaları çıxışlarında Şövkət xanıma uzun ömür, cansağlığı, yaradıcılıq uğurları arzuladılar, gül buketləri hədiyyə etdilər.

Sonda yubilyar Şövkət xanım iştirakçılara təşəkkürlərini bildirdi: - 85-in zirvəsindən geri boylanırsan, baxırsan ki, neyləmişəm deyirsən? Əlimizdən gələn sözdür. Söz qoymuşuq özümüzdən sonraya, - deyirik. Bu sözlərdən sonra Şövkət xanım Horovlu yeni yazdığı "Qocalıq" şeirini oxudu. Sonda xatirə şəkilləri çəkdirildi.

***Şakir Albalıyev***

## Vaqif Rüstəmov - 75

# Yubiley işığı və "Yurd həsrəti"

***Aprelin 27-də AYB-nin Natəvan klubunda həmyerlimiz yazıçı Vaqif Misir oğlu Rüstəmovun anadan olmasının 75 illik yubileyi münasibətilə tədbir keçirildi. Dövlət Himninin səsləndirilməsi və şəhidlərimizin xatirəsinin anılması ilə başlanan tədbirdə həm də yazıçının şair-publisist, Qabaqcıl Təhsil işçisi Hidayət Səfərlinin redaktorluğu ilə çıxan "Yurd həsrəti" ("İmza" Nəşrlər Evi, 2026) adlı sənədli romanının təqdimatı da oldu.***

Tədbirin aparıcısı AYB-nin katibi Səlim Babullaoğlu giriş sözü ilə tədbiri açdı. Qeyd etdi ki, həm Vaqif Rüstəmovun 75 illik yubileyidir, həm də onun "Yurd həsrəti" kitabının təqdimatıdır. Vaqif Rüstəmovun yazıçı kimi, tarixçi kimi yazdığı əsərlərdən söz açan S.Babullaoğlu yubilyarın "Yurd həsrəti" kitabının da məzmununa toxundu. Bildirdi ki, əsərdə baş verən hadisələr 2-ci Dünya müharibəsində faşistlərə əsir düşmüş Cəbrayıl rayonunun Daşkəsən kəndindən olan İsmayılov Səxavət Abı oğlunun (Həsan bəy İsmailli) canlı həyat tarixçəsi üzərində qurulmuşdur.

Səlim Babullaoğlu ixtisasca tarixçi olan Vaqif Rüstəmovun yazıçı kimi də tarixi hadisələrə üstünlük verməsindən və romanı tarixi faktlara söykənməklə yazmasından geniş söz açdı. Çıxışının sonunda AYB-nin sədri Xalq yazıçısı Anarın adından yubilyara AYB-nin Fəxri diplomunu təqdim etdi.

Yazıçı Elçin Hüseynbəyli çıxışında romanın bədii məziyyətlərindən söz açdı.

"Xarı Bülbül" jurnalının baş redaktoru Ziyadxan Budaq maraqlı və məzmunlu çıxışında qeyd etdi ki, biz taleyi görməsək də, tale bizi izləyir. Talelərə qədəm qoyduqca, talelər yaşandıqca insan ömrünün mənasına çevrilir. Vaqif Rüstəmovun taleyində yazarlıq da varmış və mən onu yazıçı olandan sonra tanımışam. Sadə bir ömür yaşayır və sadə insanlar sevilirlər. Mən onun 75 yaşını təbrik edirəm. O ki qaldı Vaqif Rüstəmovun "Yurd həsrəti" romanına. Bu barədə xeyli danışmaq olar, - deyən Ziyadxan Budaq əsəri oxuduqca insanı kövrək duyğulara qərq etdiyini bildirdi. Romanda Səsvərən qaya, Teştək gölü, Ağgöl və




başqa bu kimi yer-yurd adları adamı o yerlərə canlı səyahətə çəkir. Əsər həm tarixi baxımdan, həm də toponimlərimizi öyrənmək baxımından çox dəyərlidir. Xalq ruhunda, Cəbrayıl camaatının şirin danışıq tərzində yazılıb. Romanın baş qəhrəmanı 95 il ömür sürüb. Əsərdə Səxavət İsmayılovun dünyanın ən rahat, dinc ölkəsi olan İsveçrəyə getdiyi, lakin orada yaşamağa uyğunlaşa bilmədiyi, sonra Türkiyəyə gəldiyi və Türkiyədə yaşadığı çox təsirli boyalarla təsvirini tapıb. Bir sözlə, oxucuda nostalji hisslər oyadan romanı yarıda saxlamaq olmur, mən əsəri birnəfəsə oxudum, - deyən Z.Budaq sonda yubilyara uzun ömür, cansağlığı, uğurlar arzuladı.

Qeyd edim ki, tədbirə əsərdə özünə yer almış Səxavət İsmayılovun oğlu Şamil bəy də, Fuad bəy də təşrif buyurmuşdular. Tədbirdə Şamil bəyin atası ilə bağlı xatirələrini dilə gətirməsi iştirakçıları kövrək, həzin duyğulara qərq etdi.

Tədqiqatçı Nazim Tapdıqoğlu, yazıçı Südabə Sərvi, filologiya üzrə fəlsəfə doktoru Tahir Şirvan, Ramidə xanım, Qarabağ qaziləri, söz-sənət adamları çıxışlar edib, yazıçı Vaqif Rüstəmovu 75 illik yubiley münasibətilə təbrik etdilər, yaradıcılıq uğurları arzuladılar.

Sonda yubilyara söz verildi. O, tədbir iştirakçılarına səmimi təşəkkürlərini çatdırdı.

***Şakir Əlifoğlu***
***Filologiya elmləri doktoru, dosent***

## Cəbrayıl RİH, YAP rayon təşkilatı və "Ulu Xudafərin" qəzeti

**Əliyeva Safura Abdulla qızı, Abasquliyeva Səkinə Çərkəz qızı və İmanova Raya Fəzli qızının**

vəfatlarından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

Təsisçi və baş redaktor:
Şakir Əlif oğlu
ALBALIYEV

Qəzet Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyində qeydə alınıb. Şəhadətnamə №B71A40FEB25945
**CİF 1209641**
**H/h:55233080000**
**kod: 200123**
**VÖEN: 3103823792**
**SWIFT kod: AIIBAZ2X**
**M/h: AZ37NABZ01350100000000001944**
**Benefisiarın hesabı: AZ83AIIB410400C9445674829103**
**Ünvan: AZ 1073, Bakı şəh.,**
Mətbuat prospekti, 529-cu məhəllə "Azərbaycan" nəşriyyatı.
**Telefon:** (051) 441-15-82; (010) 712-36-97

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Materiallardakı faktların doğruluğuna müəlliflər cavabdehdir.
**Əlyazmalar geri qaytarılmır.**

Qəzet "Ulu Xudafərin" qəzetinin kompüter mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında çap edilib.
**albaliyevshakir@gmail.com**
**albaliyevshakir@rambler.ru**
**Sifariş №: 625**
**Tiraj: 2000**